www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 mart 2016-cı il Bazar ertəsi № 64 (6385) Qiymәti 60 qәpik

**Xəbər**

**Bakıda müəmmalı gurultu: binalar silkələndi, seysmoloq açıqlama verdi**

yazısı səh.14-də

**Gündəm**

**Bu gün İntiqam Əliyev azadlığa çıxa bilər**



Baş prokurorun hüquq müdafiəçisi ilə bağlı verdiyi protestə baxılacaq; gözlər Ali Məhkəmədə...

yazısı səh.3-də

**Doqquz günlük bayram tətili - iqtisadiyyata dəyən milyonlarla manat ziyan...**

yazısı səh.12-də

**Bakıda metro tunelinə girmək istəyən belaruslUya qarşı ittiham elan olunmayıb**

yazısı səh.5-də

**“Allahın adını daşıyan” şəhərdə nələr olur? - əməkdaşımız Yunanıstanın paytaxtından yazır...**

yazısı səh.13-də

**Milli Şura rəhbərliyinin Maqsud İbrahimbəyovun yasında iştirakına partiyalardan sərt təpki gəldi**

yazısı səh.5-də

**Rza Zərrabın ABŞ-da həbsi: sifariş, yoxsa könüllü təslim, siyasi, yoxsa kriminal olay?**

yazısı səh.10-da

**Ermənistan - Avropanın ən hərbiləşdirilmiş işğalçı ölkəsi**

yazısı səh.11-də

**Xalq artistlərindən Yaqub Zurufçuya etiraz: “Bu, cinayətdir...”**

yazısı səh.15-də

**Azərbaycanda korrupsiya ilə mübarizənin “Saakaşvili variantı” mümkündür, əgər...**

yazısı səh.9-da

**Bayram günlərində qalxan qiymətlər enməyib - müxbirimizin Novruzsonrası qeydləri**

yazısı səh.12-də

## Azərbaycanın böyük güclər yanında geosiyasi çəkisi artır

# LAVROV BAKIYA PUTİNİN XÜSUSİ XAHİŞİ VƏ TAPŞIRIĞI İLƏ GƏLİR

Rusiya diplomatiyasının “ağır topu”nun çantasında daha nələr ola bilər? Azərbaycanın strateji önəmi indi həm də onun Moskva-Ankara münasibətlərini normallaşdırmaq bacarığına bağlıdır; **rusiyalı ekspert:** “Bakı vasitəçilik rolunu öz üzərinə götürməyə hazırdırmı?..”




yazısı səh.8-də

## Naxçıvan MTN-in şefi həbs olundu - Eldar Mahmudov ətrafında mühasirə daralır

**Həbsin “formal səbəbi” təmir-tikinti işlərinə ayrılmış vəsaitin mənimsənilməsidir, amma...**

yazısı səh.6-da



*Yadigar Sadıqov:*
**“Cəza müddətimi sona qədər çəkməyə köklənmişdim...**

yazısı səh.6-da



*Mehman Əliyev:*
**“Dəyişiklik qaçılmaz olacaq”**

yazısı səh.7-də



**Rüstəm İbrahimbəyov Novruz əfvinə necə “düşdü”?**

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016



# Müstəqil Kürdüstan dövləti oktyabradək elan olunacaq?

## Qabil Hüseynli: "Bu, barıt çəlləyi kimi bölgədə detanator rolunu oynaya bilər"

**Şimali İraq Kürd Administrasiyasının rəhbəri Məsud Bərzani bu ilin oktyabr ayınadək İraqın şimalında müstəqil Kürdüstan dövlətinin rəsmən elan olunacağı və tanınacağını bəyan edib.**

Bölgədə gərginliyin hökm sürdüyü bir vaxtda Bərzaninin belə bir bəyanatla çıxış etməsinin reallığa əsaslanıb-əsaslanmadığı müzakirə mövzusudur. Eyni zamanda sual olunur ki, İraqın şimalında müstəqil Kürdüstan dövlətinin yaranması Türkiyə və Azərbaycan, həmçinin region üçün nə vəd edir?

Politoloq Qabil Hüseynli bildirdi ki, Bərzaninin müstəqil Kürdüstan dövlətinin elan ediləcəyini bildirməsi beynəlxalq aləm tərəfindən mənfi qarşılanıb. ABŞ bu xətti qəbul etmir, Rusiyanın özü də bu xətti qəbul eləmir. Bölgə dövlətləri isə ümumiyyətlə, İraq dövlətinin ərazi bütövlüyünün qorunmasının birmənalı surətdə tərəfdarıdır: "Düzdür, Bərzani söyləyib ki, biz son nəfəsimizə qədər mübarizə aparacağıq. Amma məsələ burasındadır ki, yaxın Şərqdə sərhədlərin yenidən biçilməsi və orada yeni bir dövlətin meydana gəlməsi uzun sürən qarşıdurmalara və müharibələrə səbəb olacaq. Çünki bölgədə marağı olan böyük dövlətlər yaxın Şərqdə hər hansı sərhəd dəyişikliyinin baş verməsini qəbul etmirlər. Onlar belə hesab edirlər ki, burada yeni bir dövlətin yaranması barıt çəlləyi kimi bölgədə detanator rolunu oynaya bilər. Bu nöqteyi-nəzərdən hazırda İraqın ərazi bütövlüyü məsələsi dünyanın aparıcı gücləri tərəfindən ciddi şəkildə qorunur. Türkiyə hökuməti Bərzani ilə müəyyən iqtisadi əlaqələrə malik olsa da qəti şəkildə müstəqil Kürdüstan dövlətinin elan olunmasına qarşıdır. Səudiyyə Ərəbistanı da İraqın və Suriyanın ərazi bütövlüyünün saxlanmasında qəti fikirdədir. İraq dövlətinin iqtidarı da son vaxtlar müəyyən qədər toparlana və güclənə bilib. Belə bir şəraitdə inanmıram ki, Bərzaninin bəyanatını gerçəkləşdirə bilməsi hazırda mümkün olsun. Hətta mümkündür ki, Bərzaninin əlindən hazırda mövcud olan muxtariyyət də çıxsın. Zənnimcə, Bərzaninin bəyanatı hələ vaxtı gəlməmiş, yetişməmiş məsələnin gündəmə gətirilməsi deməkdir. Bu da Bərzaninin özü, onun partiyası və kürd xalqı üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Osmanlı İmperiyasından yalnız kürdlər müstəqil dövlətə sahib deyillər. Kürdlər o dərəcədə səpələniblər ki, çoxlu sayda ölkələrdə müxtəlif sayda yaşayırlar. Ona görə də bu qədər səpələnmiş şəkildə onların vahid dövlət qurmaq istəklərinin reallaşması kifayət qədər çətin və mürəkkəb görünür".

Politoloq onu da vurğuladı ki, bu istək kürdləri yaşadıqları dövlətlərlə ciddi qarşıdurmalarla üz-üzə qoya bilər.

❑ **Etibar SEYİDAĞA**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

# Putinlə Əsəd arasında gizli razılaşma

**Rusiya prezidenti Vladimir Putinlə Suriya lideri Bəşər Əsəd arasında gizli razılıq əldə edilib. Publika.az xarici mediaya istinadən xəbər verir ki, bu barədə Suriyanın Haseke şəhərinin keçmiş polis rəisi Məhəmməd Şimali açıqlama verib.**



O deyib ki, Suriyanın ümumi neft və qaz ehtiyatlarının 65 faizinin nəqlinin 50 il müddətinə Rusiyaya verilməsi ilə bağlı Bəşər Əsədlə Vladimir Putin arasında gizli sənəd imzalanıb: "Bu sənədlə Rusiya Suriyanın yeraltı ehtiyatlarından gələn gəlirlərin 65 faizinə 50 il müddətinə sahib çıxacaq. Son günlər Rusiyanın yaxından dəstəyi ilə Əsəd qüvvələrinin Palmirada hərbi əməliyyatlar keçirməsi və şəhəri azad etməsinin də əsas məqsədi məhz neft-qaz ehtiyatları ilə bağlıdır. Çünki Palmiradan Xümsə qədər olan 180 kilometrlik ərazilər Suriyanın ən zəngin qaz ehtiyatlarına malik olan bölgələridir. Görünür, Rusiya bu ərazilərin azad olunması üçün öz maraqlarına uyğun olan və sərfəli sayılan şərtlərlə Əsədlə razılaşma əldə edib. Ancaq Əsədin 50 il müddətinə Rusiyaya verdiyi neft-qaz ehtiyatları xalqın maraqlarına tam ziddir".



## *Şəhid polisin babası:*

## "Ağlama yavrum, düşməni sevindirmə..."

**Türkiyənin Şırnak bölgəsində PKK-ya qarşı təşkil olunan əməliyyatlarda şəhid olan 23 yaşlı polis Osman Belkaya məmləkəti Yozqatda dəfn edilib. Musavat.com xəbər verir ki, şəhid polisin yasına Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan da qatılıb.**

Dəfn mərasiminin ən duyğulu anları şəhidin babasının hərəkəti olub. Belə ki, baba Abdullah Onar nəvəsinin tabutuna sarılaraq ağılar deyib. Daha sonra tabutun başında dayanan mərasim polisinin göz yaşı tökməsinə tab gətirməyərək, onun göz yaşlarını dəsmalla silib: "Ağlama yavrum, düşməni sevindirmə... Biz qürurluyuq" deyə söyləyib.

Şəhidin babasının bu sözləri dəfn mərasiminə qatılan hər kəsi duyğulandırıb. Həmin anın şəkilləri sosial şəbəkələrdə günün ən çox paylaşılan fotoları olub.



## İlhamənin oğlunun ölüm xəbəri yayıldı

**İnternetdə mərhum xalq artisti İlhamə Quliyevanın oğlu Orxan Nadirovun ölümü barədə xəbərlər yayılıb. Saytlardan birinin yaydığı məlumata görə, O. Nadirovun meyiti evinin qarşısında tapılıb. Şayiə xarakterli məlumat sosial şəbəkələrdə də yayılmağa başlayıb.**

Musavat.com xəbəri dəqiqləşdirmək üçün xalq artistinin oğlu ilə əlaqə saxlayıb. Nadirov bildirib ki, ölüm xəbərinin yayılması gülüncdür: "Ölməmişəm, sağam. Haqqımda bu cür xəbərlərin yayılması gülüncdür. Ölüm xəbərimin yayılması barədə danışmaq istəmirəm".

## Havalar soyuyur - yağış, qar yağacaq

**Martın 28-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən gecə və axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, mülayim şimal-qərb küləyi arabir güclənəcək.**

Havanın temperaturu gecə 5-8° isti, gündüz 11-16° isti, Bakıda gecə 5-7° isti, gündüz 12-14° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan aşağı 759 mm civə sütunundan 754 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 85-95 %, gündüz 65-75 % təşkil edəcək.

Martın 28-də Azərbaycanın rayonlarında arabir yağış yağacağı, dağlıq rayonlarda sulu qara, qara keçəcəyi gözlənilir. Yağışın bəzi yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11° isti, gündüz 14-19° isti, dağlarda gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-13° isti olacağı gözlənilir.

## Messi Obamanın öz qızları haqda dediklərinə cavab verdi

**Məşhur futbolçu Lionel Messi ABŞ prezidenti Barak Obamanının qızlarının onunla görüşə bilməməsi ilə bağlı dediklərinə cavab verib. Obamanın sözlərini çaşqınlıqla qarşılayan Messi bildirib: "Obama və onun qızları ilə tanış olmaq mənim üçün böyük şərəfdir. Amma mən görüşün nə vaxt baş tuta biləcəyini bilmirəm. Bəlkə də Argentinada səfərdə olduğu üçün belə deyib".**

Xatırladaq ki, B.Obama bir neçə gün əvvəl Argentinada səfərdə olarkən qızlarının Lionel Messini görmək istədiyini, amma bunun baş tutmadığını demişdi.

## Türkiyə kəşfiyyatı ABŞ-a qarşı şok terror planını ifşa etdi

**Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) DHKP-C terror təşkilatının ölkədəki ABŞ səfirliyi və konsulluğuna qarşı terror aktı planlaşdırdığını üzə çıxarıb. APA-nın Türkiyənin "Vatan" qəzetinə istinadən verdiyi məlumata görə, DHKP-C-nin "inqilab şəhidləri həftəsi" elan etdiyi 30 mart - 17 aprel tarixlərində ABŞ səfirliyi və konsulluğuna hücum təşkil etməyi planlaşdırır.**

ABŞ səfirlik və konsulluğu ilə bərabər DHKP-C terror təşkilatının hədəfləri sırasında Hakim Ədalət və İnkişaf Partiyasının təşkilatlarının binaları, hakim və prokurorlar da var. MİT DHKP-C-nin terror aktlarını Harika Kızılkaya, Ebru Yeşilırmak, Sercan Arslan, Çağrı Avcı, Özlem Pembe Olgun, Bilgehan Karpat, Hakan Karabey, Ünal Çimen, Ümit Çimen və Nadir Çınarı adlı terrorçular vasitəsi ilə həyata keçirə biləcəyi barədə də xəbərdarlıq edib. Bu terrorçuların fotoşəkilləri ölkə üzrə polis bölmələrinə paylanıb.

Xəbərdarlıqda müxtəlif vaxtlarda DHKP-C terrorçuları əleyhinə qərarlar vermiş hakim və prokurorların mühafizəsinin gücləndirilməsi təlimatı da yer alıb.

## İŞİD Avropani hədələdi - bütün aeroportlarda adamlarımız var

**Terrorçular praktiki olaraq Avropa İttifaqının bütün aeroportlarında öz əlaltılarını yerləşdiriblər. Bunu ABŞ radiostansiyasına müsahibəsində İŞİD liderlərindən biri olan Əbu əl-Ənsari bildirib. Əbu əl-Ənsari İŞİD-in adamlarının hətta Avropanın bir sıra strateji obyektlərinin təhlükəsizlik xidmətlərinə nüfuz etdiyini təsdiqləyib.**

Bir qədər əvvəl KİV-də məlumat yayılmışdı ki, terrorçu-kamikadze Bakrui qardaşları vaxtilə Brüssel aeroportunda xidmətçi işləyiblər. Yunanıstan mediası isə polis idarəsindəki mənbəyə əsaslanaraq bildirmişdi ki, terrorçularda Brüssel aeroportunun müfəssəl planı çoxdan olub. Həmin plan bir il əvvəl Paris hücumunun təşkilatçısı Abaudun Afinada qaldığı mənzildə aşkarlanmışdı. Belçika polisi niyə həmin məlumatları nəzərə almayıb? Prokurorluq hazırda bunu aydınlaşdırır.

**Martın 28-də saat 12:00-da Ali Məhkəmədə baş prokuror Zakir Qaralovun Hüquq Maarifçiliyi Cəmiyyətinin sədri İntiqam Əliyev barəsində verdiyi kassasiya protestinə baxılacaq. Hər kəs hüquq müdafiəçisinin bu gün azadlığa buraxılacağına ümid edir.**

# Bu gün İntiqam Əliyev azadlığa çıxa bilər

## Baş prokurorun hüquq müdafiəçisi ilə bağlı verdiyi protestə baxılacaq; gözlər Ali Məhkəmədə...



İntiqam Əliyev

Baş prokurorun İ.Əliyev barəsindəki cəzanı ağır hesab etməsi və bununla bağlı Ali Məhkəməyə müraciət ümidləri artıran başlıca səbəblərdən biridir. Hətta bəzi yazılarda hüquq müdafiəçisinin azadlığa çıxacağı saat da göstərilir. Doğrudur, cəzanın azaldılacağını ehtimal edənlər də az deyil. Amma İ.Əliyevin həbsxana həyatı ilə vidalaşacağına ümid edənlər çoxluq təşkil edirlər.

Qeyd edək ki, Zakir Qaralovun protestində yalnız cəza məsələsi mübahisələndirilir və təyin edilmiş cəzanın ağırlığı, eləcə də, bir sıra yüngülləşdirici halların, o cümlədən İntiqam Əliyevin xəstəliklərinin nəzərə alınması, cəzanın şərti hesab edilməsinin müzakirə olunması, son olaraq cəzanın dəyişdirilməsi məsələsi qoyulub.

Hüquq müdafiəçisinin vəkili Cavad Cavadov cəmiyyətin protestlə bağlı müzakirələrinə cavab olaraq sosial şəbəkələrdə status paylaşıb: "İntiqam müəllimin işi ilə bağlı bəzi məsələlərə aydınlıq gətirmək istəyirəm. Çünki bir sıra xəbərlərdə bəzi yanlışlıqlara yol verilib.

Baş prokuror Zakir Qaralov Ali Məhkəmənin 24 fevral 2016-cı il tarixli qərarından (bu qərarla İntiqam Əliyevin barəsində birinci instansiya məhkəməsinin hökmünün qüvvədə saxlanılmasına dair apelyasiya instansiyası məhkəməsinin qərarı dəyişdirilmədən, yəni kassasiya şikayətimiz dəyişdirilmədən saxlanılmışdır) əlavə kassasiya qaydasında protest ilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna müraciət edib. Protestin surəti, Plenum İclasında iştirak etmək üçün dəvət məktubu ilə birlikdə mənə göndərilib və Plenumun iclası 28 mart 2016-cı il tarixə saat 12-00-a təyin edilib. Plenum iclasında İntiqam Əliyevin iştirakı gözlənilmir, çünki belə bir praktika mövcud deyil və onun özü də bununla bağlı müraciət etməyib. Müdafiə tərəfi əvvəlki mövqeyində qalır. Biz cinayət işinin bəraətverici əsaslarla xitam olunmasını xahiş edəcəyik. Bununla belə, bu protestlə İntiqam Əliyevin azadlığa çıxma imkanı olduğundan baş prokurorun bu müraciətini müsbət addım kimi qiymətləndiririk".

Hüquqşünas Müzəffər Baxış protestlə bağlı Ali Məhkəmənin qəbul edə biləcəyi qərarları sadaladı: "Verilən protest Ali Məhkəmənin Plenumuna çıxarılıb. Cinayət Məcəlləsinin 427.4-cü maddəsinə görə Ali Məhkəmənin Plenumu göstərəcəyim qərarları qəbul etmək səlahiyyətinə malikdir. Kassasiya instansiya məhkəməsinin qərarı saxlanılmaqla, verilən şikayət təmin olunmaya bilər. Əvvəlki qərarın ləğvi və yeni qərarın verilməsi də gözləniləndir. Kassasiya instansiya məhkəməsinin qərarı dəyişdirilə də bilər. Plenum qeyd etdiyim qərarlardan birini verə bilər. Baş prokuror cəzanın ağırlığına görə protest verib. Açığı, inanmıram ki, Ali Məhkəmənin Plenumu İntiqam Əliyevə bəraət versin. Cinayət Məcəlləsinin 62-ci maddəsinin tətbiq olunacağını düşünürəm. Plenum konkret cəza müddəti də göstərə bilər. Məsələn, 2 il 21 gün və başqa müddətlər. O zaman göstərilən müddət İntiqam müəllimin çəkdiyi cəza ilə üst-üstə düşərsə, o, Plenumdan sonra azad ola bilər. Belə bir qərar veriləcəyini hesab edirəm. İstənilən halda, İntiqam Əliyevin heç bir cinayət törətmədiyi məlumdur. Onu qondarma ittihamlarla həbs ediblər. Bunun üçün də bəraət qərarı çıxarılmalıdır. İntiqam müəllim barəsində şərti cəza da verilə bilər. Azad etmək fikirləri olsa, iki qərardan birini qəbul edəcəklər".

Qeyd edək ki, İntiqam Əliyev Cinayət Məcəlləsinin 213.1-ci (vergidən yayınma), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 192.2-ci (qanunsuz sahibkarlıq) və 179.3.2-ci (mənimsəmə və ya israf etmə) maddələri ilə təqsirləndirilib. İntiqam Əliyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

❑ **Cavanşir ABBASLI**

# Bakı metropolitenində apteklər açılır

## "Zeytun" apteklər şəbəkəsi bazarda yerini möhkəmlətməyə çalışır...

**Tağı Əhmədov Bakı Metropoliteni rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra əvvəlcə metrostansiyaların keçidlərindəki ticarət köşkləri, daha sonra isə reklam lövhələri ləğv edildi.**




I Avropa Oyunları ərəfəsində baş verən bu prosesin izahı yeni rəhbəri Zaur Hüseynovun təyin edildiyi "Bakı Metroplotenі" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən belə verildi ki, metro ticarət üçün yox, sərnişinlərin istifadəsi üçündür. Lakin müəyyən zaman keçdikdən sonra mertodakı əvvəlki vəziyyət yavaş-yavaş geri qayıtmağa başlayıb. Sadəcə olaraq əvvəlkindən daha müasir və səliqəli şəkildə.

İlk olaraq metrostansiyaların platformalarında və keçidlərində reklam lövhələrinin bərpasına başlanılıb. İndi bütün metrostansiyaların müxtəlif yerlərində reklam lövhələrini görmək mümkündür. Bunun ardınca Bakı Metropolitenində ticarət köşkləri yaradılmağa başlayıb. Əvvəlcə bir-iki metrostansiyanın keçidində ticarət köşkü var idisə, son zamanlar əksər stansiyaların keçidlərində onları görmək mümkündür.

Bu ticarət köşkləri şəbəkə şəklində fəaliyyət göstərir. Yeni quraşdırılan ticarət köşklərində əvvəlcə yalnız gül, kitab satılacağı və bəzilərinin isə aptek kimi fəaliyyət göstərəcəyi deyilirdi. Yeni ticarət köşklərinin bir hissəsi "Lalələr" gül mağazaları kimi fəaliyyət göstərib. Bu köşklərdə gül satılacağı deyilsə də sonradan mağazalarda oyuncaqlar, suvenirlər, elektrik malları, bujiteriyalar və bir çox növ malın satışına başlanılıb.

Digər köklər isə uzun müddət istifadəsiz qalıb. Həmin köşklərin aptek kimi fəaliyyət göstərəcəyi də əvvəlcədən bildirilən məlumatlar sırasında idi. Aldığımız məlumata görə, artıq həmin köşklərin aptek kimi istifadəyə verilməsinə başlanılıb. Bu köşklər də şəbəkə şəklində, eyni şəxs və ya şəxslərin istifadəsinə verilib. Başqa sahibkarların bu mağazalardan istifadəsinə icazə verilməyib.

Artıq köşklərin "Zeytun" apteklər şəbəkəsi kimi fəaliyyətə başlaması üçün işlər görülür. İlk olaraq "Nəriman Nərimanov" metrostansiyasının keçidində aptekin açılışı üçün bütün işlər yekunlaşıb. Yaxın zamanlarda digər stansiyaların keçidlərindəki boş mağazaların da "Zeytun" apteklər şəbəkəsinin filialları kimi fəaliyyət göstərəcəyi gözlənilir.

Əldə etdiyimiz məlumata görə, "Zeytun" aptekləri ölkə bazarında öz yerini möhkəmləndirməyə başlayan şəbəkələrdəndir. Bu şəbəkənin tamamilə bağlanan və rəhbər şəxslərinin həbs edildiyi "Riyad-farm" MMC-nin yoxluğundan və ölkə bazarında son zamanlar rəqabətdə uduzmağa başlayan "Avromed Company" MMC-nin yerini tutmağa çalışdığı bildirilir. Bakı Metropolitenindəki köşklərlə yanaşı, paytaxtın bir çox yerlərində şəbəkənin yeni filiallarının açılmasına başlanılıb.

❑ **İ.MURADOV**



# "Türkiyə istənilən oyunu poza bilər..."

## Natiq Miri: "ABŞ-ın Rusiyanı sıxışdırması onu Türkiyə və Azərbaycana yaxınlaşdırır"



Natiq Miri

**ABŞ prezidenti Barak Obamanın Kubaya, dövlət katibi Con Kerrinin isə Rusiyaya tarixi səfərləri hazırda dünya gündəminin əsas müzakirə mövzularından biridir. Obamanın ilk ABŞ prezidenti olaraq Kubaya getməsi, eləcə də, Rusiya ilə gərgin münasibətlərin fonunda Kerrinin bu ölkəyə qəfil gəlişi hər iki səfərin tarixi əhəmiyyətinin artmasına səbəb olub.**

Ekspertlər hesab edirlər ki, bu səfərlər dünya düzəninə təsir edə bilər. Obama və Kerrinin səfərləri ətrafında bir sıra iddialar ortaya atılıb. Bir çoxları hesab edir ki, ABŞ prezidenti Rusiyanın Kuba üzərində olan təsirini tamamilə məhv etmək üçün belə bir tarixi addım atıb. Dövlət katibinin səfəri ilə bağlı isə müxtəlif versiyalar var. Bura Suriya məsələsi də daxil, ABŞ-Rusiya münasibətlərinin normallaşmağa üz tutması iddiaları da daxildir.

Politoloq Natiq Miri hesab edir ki, uzun illərdən sonra ABŞ prezidentinin Kubaya səfəri təhlükəsizlik məsələsi ilə bağlıdır: "Nəzərə almaq lazımdır ki, Kuba ABŞ-ın qonşuluğunda yerləşən ölkədir. Bu baxımdan Obamanın səfərinin təhlükəsizlik məsələsi ilə bağlı olduğunu düşünürəm. Əgər Kubanı ABŞ içərisində əridərsə, Rusiyanın Amerika qitəsinə təsiri tamam məhdudlaşacaq. Obamanın səfərini Rusiyanın Amerika qitəsinə təsirini aradan qaldırmaq üçün düşünülmüş bir siyasi addım kimi qəbul etmək lazımdır. Kerrinin Rusiyaya səfəri və təyyarədən düşərkən qırmızı çantanın onun əlində olması mənə elə gəlir ki, bir çox faktları ortaya qoydu. Çünki qırmızı çantada adətən kəşfiyyat xarakterli sənədlər daşınır. Bu səhnəni bütün dünyanın seyr etdiyini Rusiya prezidenti anladığı üçün zarafatyana dilə gətirdi. Hətta çantanın içərisində böyük miqdarda pulların olacağını və Putinə rüşvət təqdim olunacağı ilə dünyanın diqqətini yayındırmaq istədi. Kerrinin cavabı birmənalı oldu. O, bildirdi ki, darıxmayın, biz göz-gözə tək qalanda qırmızı çantanın içərisində olan süprizlərlə sizi tanış edəcəm. Bu səfərlərdəki məqsədin arxasında mənə elə gəlir ki, Rusiyanın son aylarda baş verən terror hadisələrində əlinin olməsı və Ukrayna, Suriya cəbhəsində gedən proseslər durur. Bu faktları ortaya qoymaqla Rusiyanın Ukrayna və Suriyada sıxışdırıldığı görünür. Rusiya qoşunlarının bir hissəsini Suriyadan çıxarması da Amerikanın ritorikasında dəyişikliyə səbəb olmadı. ABŞ güzəştə getmədi. Hətta bəyan etdi ki, Suriya məsələsinin Ukraynaya heç bir dəxli yoxdur. Donbas və Krımın Ukraynaya qaytarılmayınca, Rusiyaya qarşı sanksiyalar aradan qaldırılmayacağı da bəyan edildi".

Politoloq son günlərdə gedən proseslərin artıq Rusiya-Türkiyə münasibətlərinə ciddi təsir etdiyini də vurğuladı: "Rusiya çıxılmaz vəziyyətə düşdüyünü və regionun güclü dövləti olan Türkiyə ilə əlaqələrin bərpa olunmasının vacibliyini anlayıb. Son zamanlar hər iki ölkə arasında buzların əridiyi görünür. Rusiyanın iqtisadi yöndə tətbiq etdiyi sanksiyalar aradan qaldırılır. Artıq Rusiyanın xarici işlər naziri Lavrovun da Azərbaycana səfəri planlaşdırılır. Heç şübhəsiz, bu səfərin planlaşdırılmasında Azərbaycanla Qərb arasındakı yaxınlaşma da mühüm rol oynayıb. Amerikanın Rusiyanı sıxışdırması düşünürəm ki, Rusiyanı Türkiyəyə yaxınlaşdırır. Eyni zamanda Azərbaycana da yaxınlaşdırır. Yaxın zamanlarda bu prosesi aktiv şəkildə görəcəyik. Rusiya Ukrayna və Suriyada məğlub olduğunu, tətbiq olunan sanksiyaların itirdiklərini yaxşı başa düşür. Bundan sonra Rusiyanın 3-4-cü ölkəyə müdaxiləsi mümkünsüz görünür. Çünki hərbi, siyasi və iqtisadi cəhətdən buna gücü çatmır. Ona görə də Rusiyanın yeganə çıxış yolu ABŞ-a qarşı dura biləcək bir regional güc mərkəzi ilə müttəfiqlik etməsidir. Regionda isə yeganə belə güclü dövlət Türkiyədir. İstənilən oyunu Türkiyə poza bilər. Buna görə də, Türkiyə-Rusiya münasibətlərinin inkişaf edəcəyini düşünürəm. Bunun da Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsirinin olacağı qaçılmazdır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016



# Əfvlə azad olan siyasilər nə edirlər?

## Həbsdə qalanların əfvə münasibətləri müsbətdir; azad olunan siyasi məhbusların azadlığa adaptasiya olunmaları asan getmir...

**Məlum olduğu kimi, Novruzda verilən əfvlə bir çox siyasi məhbus azadlığına qovuşdu. Hazırda azadlığa çıxan siyasilər yeni həyata adaptasiya olunmaqla məşğuldurlar. Həbsdə qalan siyasilər də az olmadı. Onların yaxınları bayram günlərində həbsxanada onlarla görüşüblər.**

Həbsxana həyatı ilə vidalaşan siyasilərin nə işlə məşğul olduqları, eləcə də, həbsdə qalanların verilən əfvə münasibətləri ilə maraqlandıq.

Müsavat başqanının müavini Tofiq Yaqublu azadlığa adaptasiya olunma prosesinin çətin keçdiyini söylədi: "Adaptasiya prosesi çox çətin gedir. İlk olaraq, sizinlə danışdığım mobil telefona öyrəşə bilmirəm. Qonaqlar çox olduğundan işlərim də həddsiz çox olur. Facebook parolumu unutmuşdum. Birtəhər bərpa edə bildim. Bəzi statuslarımı paylaşıram. Siyasi fəaliyyətimə gəlincə, həbsxanada da bu fəaliyyətim gedirdi. Həbsxanadan daim yazılar, məqalələr göndərirdim. Nərgizin faciəsindən sonra bu prosesi bir qədər dayandırmışdım. Amma mütəmadi olaraq, imkan daxilində həbsxanada siyasi fəaliyyətlə məşğul olur, köşə yazıları yazırdım. Gecə həbsdən azad olundum, səhər Milli Strateji Düşüncə Mərkəzinin toplantısında iştirak etdim. Martın 28-də ilk növbədə İntiqam Əliyevin məhkəməsinə gedəcəm, oradan da Müsavat Divanının toplantısına qatılacağam. Siyasi fəaliyyəti bir anda yubatmaq olmaz. Daha ciddi, qətiyyətli mübarizə aparmaq lazımdır. Əvvəllər qaldığımız yerdən daha enerjili şəkildə davam etməliyik".

Tofiq bəylə eyni maddə üzrə həbs olunmasına baxmayaraq, əfvə düşməyən REAL hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova bayramda onunla görüşüb: "İlqarın əfvə münasibəti yaxşı oldu. Azadlığa çıxan dostları üçün çox sevindi. Özünün əfvə düşməyəcəyini yaxşı bilirdi. Hazırda Apelyasiya Məhkəməsini gözləyirik. Nəticəsinin necə olacağını gözləyirik. Səhhəti yaxşıdır. Saxlanma şəraiti də normaldır".

İ.Məmmədovun vəkili Fuad Ağayev verilən əfv sərəncamından şad olduğunu qeyd etdi: "Düşünürəm ki, mənim kimi, İlqar Məmmədov da verilən əfvə sevinir. Mənim və başqalarının müdafiə etdiyi neçə-neçə siyasi məhbus azad olundu. İlqar Məmmədovun əfvə düşməməsi ilə bağlı sual mənə verilməməlidir".

Azadlığa çıxan NİDA-çı gənc Rəşad Həsənov hələ ki gələcəklə bağlı planlarının olmadığını söylədi: "Son 10 gün ərzində dost-tanışla görüşürəm. Gələcəklə bağlı konkret planım hələ ki yoxdur".

Sabiq siyasi məhbus, NİDA-çı gənc Məmməd Əzizov da gələcəklə bağlı konkret planlarının olmadığını bildirdi: "Hələ ki istirahət edirəm. Azadlığa öyrəşməyə çalışıram. Bu proses elə də asan getmir. Konkret gələcəklə bağlı planlarım yoxdur".

Bir oğlu - Sirac Kərimli azadlığa çıxan, digər oğlu həbsdə qalan Müsavat funksioneri Raqif Kərimli də martın 22-də övladı Fərəc Kərimli ilə həbsxanada görüşüb. Vicdan məhbusunun atası görüş barədə bunları dedi: "Fərəcin əhval-ruhiyyəsi yaxşıdır. Siracın azadlığa çıxmasına çox sevinir. Siracın özü də görüşə getmişdi. Təəssüf ki, əfv yarımçıq oldu. Həbsdə qalanlar oldu. Amma bununla belə Siracın azad olunmasına çox sevindik. Onun uşaqlarının keçirdiyi sevinc hisslərini isə anlatmaq çox çətindir".

❑ **Cavanşir ABBASLI**

# Bayramda bankların işləməməsi turistlərə də valyuta problemi yaşatdı

## Ekspertlərə görə, əvvəlcədən bunu görmək çətin deyildi, çətinliklər isə ölkəyə turistlərin gəlişini daha da azaldacaq...

**Valyutadəyişmə məntəqələrinin bağlanması Novruz bayramında ölkəyə gələn turistlərə, həmçinin yerli sakinlərə ciddi problem yaradıb. Paytaxt Bakıda bayram tətilində bankların da fəaliyyət göstərməməsi valyuta dəyişilməsində ciddi problemlər yaradıb. Bu isə "qara bazar"ın fəaliyyətini genişləndirib.**

Qeyd edək ki, bu ilin yanvar ayından etibarən Azərbaycanda valyutadəyişmə məntəqələrinin lisenziyası ləğv edilərək bağlanıb. Bundan sonra dollar alan da, satan da məcburi şəkildə banklara və onların filiallarına üz tutmalı olublar. "Exchange"lərin bağlanması "qara bazar"ın da işini gücləndirib, əsasən də qeyri-iş günlərində "qara bazar" "çiçəklənib".

Musavat.com-un məlumatına görə, Novruz bayramında qeyri-iş günlərinin daha çox (martın 19-dan 28-dək) olması "qara bazar"a tələbatı məcburi şəkildə artırıb. Fürsətdən istifadə edən işbazların bayram günlərindəki qazancı da çoxalıb. "Qara bazar"ın əsas müştəriləri isə Bakıya gələn turistlər olub. Cənubi Azərbaycandan, Rusiyadan gələn turistlər məcburi olaraq "qara bazar"a üz tutublar. Bakıya qonaq gələnlər də təəccüblü şəkildə "exchange"lərin bağlandığını görüblər. Xarici valyutanı manatla dəyişə bilməyən turistlər alış-veriş edərkən çıxılmaz vəziyyətdə qalıblar. Bəzi mağazalarda turistlərə güzəşt edilərək onlardan ödəniş dollarla qəbul edilib. Dolların məzənnəsi bu zaman 1,50-1,55 manatdan hesablanıb.

Bayram günlərində - martın 20-23 ərəfəsində heç bir bankın valyuta dəyişmə məntəqəsi fəaliyyət göstərməyib. Lakin martın 24-dən etibarən bir neçə bankın "exchange"ləri işləməyə başlayıb. Əvvəllər valyuta dəyişmə məntəqələrinin çox olduğu 28 May küçəsində açıq olan "Zaminbank"ın filialında dolların alış qiyməti 1,582 manat olaraq göstərilib. Satış qiyməti isə 1,592 manatdır. Burada digər bankların filiallarına və "qara bazar"a nisbətən dolların satışı ucuzdur. "Nikoil" bankın Puşkin küçəsindəki valyuta dəyişmə məntəqəsi də fəaliyyət göstərir. Burada dolların satış qiyməti ilə alış qiyməti arasında digər banklara nisbətən böyük fərq var. "Nikoil" bank 1,54 manata aldığı dollar müştərilərə 1,62 manata satılır. Xatırladaq ki, martın 18-də sonuncu iş günündə Azərbaycan Mərkəzi Bankı rəsmi olaraq dolların məzənnəsini 1,5971 manat olaraq açıqlamışdı.

Qeyd edək ki, Rusiyada yaşayan həmvətənlərimizin və turistlərin Bakıya gəlişi valyuta dəyişmə məntəqələrinin işini daha da sürətləndirib. "Exchange"lərə dollarla yanaşı rubl satmaq istəyənlər də çoxalıb. Hazırda valyutadəyişmə məntəqələrində rublun alışı 0,022-0,023, satışı isə 0,024 manatadır. Avronun alış qiyməti "Zaminbank"da 1,762, satışı isə 1,783 manatdır. "Nikoil" bankda isə avronun alış qiyməti 1,76 manata təklif olunur. Satış qiyməti isə 1,86 manatdır.




Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a bildirib ki, Mərkəzi Bank və hökumətin bu davranışı "qara bazar"ın fəaliyyətini gücləndirib: "Bayramdan öncə bir neçə mətbuat orqanlarına müsahibələrimizdə də, sosial şəbəkələrdə də bununla bağlı xəbərdarlıq etmişdik. Demişdik ki, belə bir vəziyyətin yaranması ehtimalı var. Çox yaxşı olar ki, Mərkəzi Bank və hökumət xüsusi bir qərar versin, heç olmasa şəhərin mərkəz hissəsində çalışan banklarda bayram günlərində iş rejimi olsun ki, valyutadəyişmə məntəqələrinin çalışması üçün problem yaranmasın. İndiki şəraitin yaranması "qara bazar"ın "çiçəklənməsinə" səbəb oldu. Ölkəyə gələn turistlər üçün ciddi problemlər yarandı. Bunun dəfələrlə özüm şahidi oldum. "Qara bazar"ın yaranması, əsasən də "28 may" metrostansiyası ətrafında müşahidə olundu. Turistlər üçün ucuz qiymətə valyuta dəyişən işbazlar meydana çıxdı. Satış üçün müraciət etdikdə, çox ucuz qiymətə dəyişirdilər. Dollar almaq istəyəndə isə 1,85, 1,90, hətta 2 manat civarında qiymət təklif olunurdu. Bu da "qara bazarı"n dirçəlməsinə səbəb oldu. Bunu öncədən görmək çətin deyildi. Təəssüf ki, nə Mərkəzi Bank, nə hökumət bununla bağlı heç bir addım atmadı. Ola bilsin ki, bankların özləri belə şəraitin yaranmasında maraqlı idilər. Yəni ən azından "qara bazar"ın çiçəklənməsindən müəyyən dərəcədə özləri də istifadə etsinlər. Bu, çox bəsit bir məsələ idi, həlli üçün də asan qərar vermək mümkün idi. Ölkədə bir "Azneft" meydanına yaxın bir bankın valyutadəyişmə məntəqəsi, bank şöbəsi çalışırdı. Yolum tez-tez oradan düşür. Elə vaxt olurdu ki, bayram günlərində onlarla insan orada növbə tuturdu. Bu, narahatlıq yaradan bir məqamdır. Onu da nəzərə alaq ki, Azərbaycan hökuməti dəfələrlə ölkədə turizmin inkişaf etdirilməsi haqqında danışır. Turizmi prioritet sahələrdən biri kimi təqdim edir. Belə bir şəraitin yaranması tamam anlaşılmazlıq yaradır ki, əgər turizmi inkişaf etdirmək istəyiriksə, nəyə görə turistlər üçün bir çox problemlər yaşadırıq? Həm də viza ilə bağlı problemlərdən tutmuş ölkədəki bahalığa qədər, həm də bunun üzərinə bir də valyutadəyişmə problemi yaranır. Bundan başqa, bayram günlərində Azərbaycan vətəndaşları da kifayət qədər aktiv şəkildə yaxın ölkələrə, ən azından Gürcüstana, Türkiyəyə səfərlər planlaşdırırdılar. Səfər öncəsi və yaxud da səfərə getməmişdən qabaq müəyyən valyuta əldə etmək istəkləri yaranırdı. Bu da vətəndaşlara böyük problem yaşatdı. Yəni hökumətin, Mərkəzi Bankın belə bir addım atmamasının məntiqi izahı yoxdur. Ona görə də belə bir bəsit məsələni həll edə bilməyən hökumət və yaxud da Mərkəzi Bank müəyyən məsuliyyət daşımalıdır. Ən azından, insanlardan üzr istəməlidir ki, bunu nəzərə almayıblar, belə bir şəraitin yaranmasına səbəb oldular. Nə iqtisadi, nə siyasi məntiqlə izah etmək mümkün deyil. Turizmi inkişaf etdirmək istəyiriksə, hər şey turistin rahatlığı üçün olmalıdır. Necə ki, Tiflisdə hər addımbaşı valyutadəyişmə məntəqələri var, gecə saatlarına qədər işləyir, bu da turistlər üçün çox rahat şərait yaradır. Ona görə də Azərbaycanda belə bir şəraiti görən tutaq ki, iranlı turist ikinci dəfə Azərbaycanı seçməyəcək. Gürcüstanda həm viza yoxdur, valyutadəyişmə məntəqələri çalışırlar, həm də ucuzluqdur. Azərbaycan hökumətinin bu məsuliyyətsiz addımı gələcəkdə Azərbaycana gələcək turistlərin sayının azalmasına səbəb olacaq".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

# Milli Şura rəhbərliyinin Maqsud İbrahimbəyovun yasında iştirakına partiyalardan sərt təpki

## Sərdar Cəlaloğlu: "Cəmil Həsənli kitablarında həm Heydər Əliyevi, İlham Əliyevi Azərbaycanın xilaskarları kimi təqdim edir, həm də Əbülfəz Elçibəyi"

## Razim Əmiraslanlı: "Tənqidə təhqirlə cavab vermək həm də Eldəniz Quliyevin acizliyinin göstəricisidir"

**Özünü ölkədə əsas müxalifət təşkilatı elan edən Milli Şuranın sədri Cəmil Həsənlinin və qurumun Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyevin keçmiş deputat, yazıçı Maqsud İbrahimbəyovun dəfn mərasimində iştirakı yeni bir qalmaqala yol açıb. Belə ki, bir sıra müxalifətçilər, əsasən də gənc müxalifətçilər Cəmil Həsənlini və Eldəniz Quliyevi prinsipsizlikdə suçlayıblar. Qeyd ediblər ki, dəfələrlə müxalifəti məhv etməyə, jurnalist Elmar Hüseynovun başını kəsməyə çağırışlar etmiş bir adamın vida mərasiminə qatılmaq demokratik düşərgəyə, Elmar Hüseynovun ruhuna hörmətsizlikdir.**

Eldəniz Quliyev isə onu və Cəmil Həsənlini Maqsud İbrahimbəyovun yas mərasiminə getməyə görə qınayan müxalifətçilərə sərt cavab verib. Moderator.az -a açıqlamasında bildirib ki, onların Maqsud İbrahimbəyovun yas mərasimində iştirakına irad tutanlar qələt edir: "Rüstəm İbrahimbəyov qardaşının yası ilə əlaqədar olaraq Bakıya gəlib. Milli Şuradan mən və Cəmil Həsənli Rüstəm müəllimlə görüşdük. Biz həmçinin Maqsud İbrahimbəyovun dəfn mərasimində də iştirak etdik. Bəzi gənclər buna etiraz edir. Mən Maqsud İbrahimbəyovla bir yerdə işləyəndə indi bizi qınayan gənclərin atası üç təkərli velosiped sürürdü. Sözsüz ki, bu adamın səhvləri olub. Biz bunları sağ ikən demişik. İndi Maqsud İbrahimbəyov ölüb. Ölən şəxsin arxasınca danışmaq etik deyil. Bizi qınayanlara gəldikdə isə bu insanlar qələt edirlər. Maqsud İbrahimbəyovun yas mərasiminə qatılmağımızı müzakirəyə çıxarmaq mənəviyyatdan, tərbiyədən kənar bir şeydir. Bu məsələ barədə deyilənləri də qəbul etmirəm. Çünki bu, müzakirə mövzusu deyil".

Eldəniz Quliyevin ona irad tutan müxalifətçilərə bu şəkildə cavab verməsinə müxalif partiyalardan reaksiya gəlib.

ADP sədri Sərdar Cəlaloğlu "Yeni Müsavat"a bildirib ki, Eldəniz Quliyev, Cəmil Həsənli kimi adamları tam siyasiləşmiş adam saymır. O, bu fikrini bu cür əsaslandırıb: "Məsələn, Cəmil müəllim lazım olanda müxalifətin tərəfində olur, lazım olanda hökumətin yanında dayanır. Yazdığı kitabında həm hakimiyyəti tərifləyir - Heydər Əliyevi, İlham Əliyevi Azərbaycanın xilaskarları kimi təqdim edir, həm də Əbülfəz Elçibəyi. Bu baxımdan mən Cəmil Həsənlini tam müxalifətçi siyasətçi hesab eləmirəm. O cümlədən Eldəniz Quliyevi də. Eldəniz Quliyevi və Cəmil Həsənlini hakimiyyətdən müəyyən məqamlarda narazı qalan ziyalı kimi qiymətləndirirəm, siyasətçi kimi qiymətləndirmirəm. Bu baxımdan belə adamların öz sinfindən olan insanlara münasibəti ilə bizim - sırf müxalifətçi siyasətçilərin münasibəti eyni ola bilməz. Mən düşündüm ki, Maqsud İbrahimbəyov parlaq ziyalı olmadığı, siyasi mövqeyinə görə xalqa da yaxın bir adam olmadığı üçün mənim onun yasında iştirak eləməyimə ehtiyac yoxdur. Amma rəhmətlik akademik Mithəd Abbasov vəfat edəndə dəfnində iştirak etdim. Çünki Mithəd Abbasov həm bir ziyalı kimi Azərbaycan elminə xidmət etmişdi, həm də bir vətəndaş kimi lazımi anlarda vətəndaş mövqeyini nümayiş etdirmişdi. Mən özümü borclu bildim ki, onun dəfnində iştirak etməklə vətəndaş mövqeyimi ifadə edim.

Eldəniz Quliyevin onu tənqid edənlərə təhqirlə cavab verməsinə gəlincə, mən Eldəniz bəyi ümumiyyətlə tanıya bilmirəm. Bir tərəfdən özünü ziyalı adlandırır, o biri tərəfdən ağzını açanda ziyalıya yox, ən aşağı səviyyəli vətəndaşın belə, ictimai yerdə dilinə gətirmədiyi şəkildə sözlər işlədir. Bu cür danışması birinci dəfə deyil. Belə olmaz axı. Dəfələrlə Milli Şuranın üzvü olmayan şəxslər haqqında Eldəniz elə çirkin sözlərdən istifadə edib ki, ziyalı adlanan şəxs üçün o cür sözlər çox böyük qəbahətdir. Eldəniz Quliyev elə bilir ki, sözü nə qədər pis şəkildə desən, bir o qədər siyasi müxalifətçi olursan. Eldəniz Quliyev yas


Sərdar Cəlaloğlu


Razim Əmiraslanlı


Cəmil Həsənli


Eldəniz Quliyev

yerində iştirak məsələsinə münasibətdə tənqidlərə cavabında üzrü günahından betər hərəkətə yol verib. Müxalifətə qarşı ən radikal çıxışların müəllifi olmuş, düşmənçilik mövqeyi tutmuş bir adamın vida mərasimində iştirak edir, bu azmış kimi ona irad tutanları da küçə sözləri ilə təhqir edir".

ADP sədrinin fikrincə, bütün bunlar əslində Eldəniz Quliyevin siyasətdə təsadüf adam olması ilə bağlıdır: "Məşhur bir filosofun deyimində bildirilir ki, siyasiləşməmiş ziyalıların siyasətdə iştirakı onların yalnız təlxək rolunda iştirakı ilə müşahidə oluna bilər. Bu baxımdan da siyasiləşməmiş ziyalının siyasətdə iştirakına ciddi fikir vermək lazım deyil. Hökumətin onlara münasibəti dəyişsə, onların da münasibəti dəyişəcək. Bir orden versələr, gedib dayanacaqlar hökumətin yanında".

Müsavat Partiyasının Divan üzvü Razim Əmiraslanlı isə bildirib ki, özünü ziyalı hesab edən şəxs bu cür məsələlərə bir az səbirli və dözümlü yanaşmalıdır: "Təhqir yolverilməzdir. Eyni zamanda acizlik əlamətidir. Tənqidə təhqirlə cavab vermək həm də Eldəniz Quliyevin acizliyinin nümunəsidir. Mənim subyektiv fikrim ola bilər. Amma hesab edirəm ki, ictimai statusu olan birinin, eyni zamanda özünü demokrat, hakimiyyətə qarşı müxalif adlandıran birinin mərhum jurnalist Elmar Hüseynovun ünvanına təhqiramiz ifadələr işlədən, müxalifəti məhv etmək çağırışları edən birinin yas mərasimində iştirakı doğru deyil. Bu baxımdan Eldəniz Quliyev haqlı olaraq da ictimai qınağa tuş gəldi".

Qeyd edək ki, Azərbaycanın xalq yazıçısı Maqsud İbrahimbəyov ötən həftə 81 yaşında dünyasını dəyişib. O, I Fəxri xiyabanda torpağa tapşırılıb.

❑ **E.SEYİDAĞA**

***P.S. Cəmil Həsənli və Eldəniz Quliyev barələrində səslənən ittihamlara cavab vermək istəsələr, redaksiya onlara bu şəraiti yaratmağa hazırdır.***

# Bakıda metro tunelinə girmək istəyən belaruslııya qarşı ittiham elan olunmayıb




## İlham İsmayıl: "Məsələ ən ciddi şəkildə yoxlanılmalıdır"

**Paytaxtın Nəsimi rayonunda Bakı Metropoliteninin havalandırma sisteminin borusu ilə keçmək üçün dəmir barmaqlıqları kəsməyə çalışan Belarus vətəndaşı Sergey İlyevski saxlanılıb. Bu haqda DİN və Baş Prokurorluğun mətbuat xidmətlərinin yaydığı birgə məlumatda deyilir ki, S.İlyevski martın 25-də dəmir barmaqlıqları xüsusi alətlə kəsmək istəyərkən Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının əməkdaşları tərəfindən saxlanılıb.**

Məlumata görə, hadisə yerindən metroda istifadə edilən qapı açarı, əlcək, alın fənəri, müxtəlif uzunluqda iki kəndir, 10 ədəd boya balonu, 12 rəng püskürən balon başlığı, fotoaparat və videokamera aşkar edilib.

Belarus vətəndaşı olan İlyevskinin üzərindən Tbilisi və Yerevan metro stansiyalarında və depolarında çəkdiyi şəkillər tapılıb. O, həmçinin üzərində Bakı Metropoliteninin sxemini gəzdirib. Mətbuat üçün yayılmış açıqlamada deyilir ki, Belarus Respublikasının Azərbaycandakı səfirliyinin əməkdaşlarının da iştirakı ilə keçirilmiş ilkin araşdırma zamanı saxlanılan şəxs metropoliten tunelinə daxil olaraq divarlara qraffiti üslubunda şəkillər çəkmək istədiyini deyib.

Bu şəxs casus ola bilərmi? Metropoliten kimi strateji bir obyektə qanunsuz şəkildə daxil olmaq istəyən şəxsin özünü qraffiti çəkən kimi təqdim etməsinə inanmaq olarmı? Xüsusən də onun Ermənistandan Gürcüstana, oradan isə ölkəmizə gəldiyini nəzərə alsaq bu, nə dərəcədə inandırıcıdır?

Bu və digər suallarla istefada olan təhlükəsizlik zabiti, polkovnik-leytenant İlham İsmayıla müraciət etdik.

İ.İsmayıl deyir ki, bu şəxsin


İlham İsmayıl

kimliyi indiki həssas məqamda çox ciddi şəkildə yoxlanılmalıdır: "Onun birmənalı şəkildə casus və ya terrorçu olduğunu söyləmək çətindir. Sadəcə olaraq elə bir dönəmdə yaşayırıq ki, hər gün Avropanın ortasında, insanların çox sıx toplaşdığı ərazilərdə, metro stansiyalarında partlayışlar baş verirsə, bura Belarus vətəndaşının gələrək qanunsuz yolla Bakı metropoliteninin ərazisinə daxil olmaq istəməsində şübhəli məqamlar var".

İ.İsmayıla görə, Belarus vətəndaşının hərəkət trayektoriyasına da diqqət etmək lazımdır: "Şübhəli məqamlardan biri də odur ki, bu şəxs Ermənistandan Gürcüstana, oradan isə Azərbaycana gəlib. Ola bilər ki, həmin adam "verbovka" olunub. Ermənistan xüsusi xidmət orqanlarından təlimat alaraq Gürcüstan vasitəsi ilə Azərbaycana gəlib. Bunlar şübhəli məqamlardır. Bu məsələlər yoxlanılmalıdır. Bu adam həmin əraziyə əhalinin gur olduğu vaxtda girmək istəyib. Adətən casuslar belə addım atırlar ki, hüquq-mühafizə orqanlarının diqqətini cəlb etməsinlər. Yəni belə şübhəli məqamlar var".

İ.İsmayıl deyir ki, metropoliten terror aktlarının törədilməsi üçün əlverişli nöqtə hesab edilir: "İnsanların çox toplaşdığı hava limanlarından fərqli olaraq metropolitendə sərnişinlərin yoxlanılması elə də ciddi şəkildə baş tutmur. Hava limanında sərnişinləri dəfələrlə yoxlamaq imkanı var. Metro stansiyalarında isə belə bir sistem yoxdur. Üstəlik yerin altında olduğuna görə yüngül hədəf hesab edilir. 1995-ci ilin oktyabrında 289 nəfərin ölümü ilə nəticələnən terror aktı Azərbaycanda, Belarus vətəndaşının daxil olmaq istədiyi Bakı metropolitenində törədilmişdi. Azərbaycan metrodakı terror zamanı ölü sayına görə dünyada ilk yerdədir. Bu baxımdan Belarus vətəndaşının Bakı metropoliteninə daxil olmaq istəyində çox şübhəli məqamlar var və məsələ ən ciddi şəkildə yoxlanılmalıdır. Burada onun vətəndaşı olduğu ölkə ilə Azərbaycanın münasibətlərinin pozulması məsələsi ən son sırada gəlir. Bu haqda düşünməyə belə əsas yoxdur".

Bakı metrosunda saxlanılan Belarus vətəndaşına qarşı hələ ki, ittiham irəli sürülməyib. Belarusun Azərbaycandakı səfirliyi məsələ ilə sıx məşğul olur.

"Report" xəbər verir ki, bunu Belarus Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Dmitri Mironçik bildirib. O, Azərbaycan tərəfinin son dərəcə nəzakətlə davrandığını bildirib: "Səfirlik Belarus vətəndaşının tutulması barədə operativ şəkildə məlumatlandırılıb. Həmçinin səfirlik işçilərinin saxlanılan şəxslə görüşü təmin edilib, onun üçün dərhal tərcüməçi və vəkil xidməti təşkil olunub".

"Saxlanılan şəxsə qarşı hələ ki, ittiham irəli sürülməyib. Azərbaycan tərəfinin bizim səfirliyi operativ şəkildə məlumatlandırması faktı bizə bir sıra zəruri tədbirlər görmək imkanı verdi", - deyə D.Mironçik bildirib.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Əsgərliyi “göz yaşlarında boğan” telekanallar

Elşad MƏMMƏDLİ

**Son illərin ən uzun bayram tətilini də beləcə başa vurduq. 8 gün ərzində dincəldik, gəzdik, dolaşdıq və s. Həm də Novruz bayramı günlərində xeyli asudə vaxtımızın olması Azərbaycan telekanallarının monitorinqini aparmaq üçün bir fürsət oldu...**

Sirr deyil ki, yerli televiziya kanallarındakı verilişlərin əksəriyyət tamaşaçının əsəblərini tarıma çəkir, ikrah doğurur. Plagiat - oğurluq layihələr, düşük, bayağı seriallar, ucuz şoular, şablon xəbər siyasəti tam bezdiricidir.

Telekanallarımızda hərbi-vətənpərvərlik mövzusunda az sayda verilişlər də var. Ancaq bu proqramlarda da əsasən yanlış təbliğat aparılır. Qeyri-peşəkarların hazırladığı bu verilişlər ordumuz haqda cəmiyyətdə mənfi fikir formalaşdırmaqdan başqa bir iş görmür. Ən böyük qüsurlardan biri isə telekanalların əsgər anaları və bacılarını, onların digər doğmalarını qəmli musiqi sədaları altında hönkürdüb ağlatmasıdır.

Məsələn, bir veriliş var, əsgərləri hərbi hissədən icazəsini alıb 2-3 günlük evinə gətirir, bunu ana-ataya sürpriz edirlər. İlahi, əsgərin anası ilə görüşməsini elə təqdim edirlər ki, sanki gənc əsgərlikdən yox, əsirlikdən gəlib. Ana “ağlamalı mahnı”nın müşayiəti ilə hönkürür, əsgər kövrəlir, aparıcının da göz yaşları dayanmır.

Yaxud da gəncləri orduya yola salarkən, əsgərlər ordudan tərxis olunub evə dönərkən ata-ana, bacı qardaşları ilə görüş səhnələrini elə ağlaşma-qiyamətlə təqdim edirlər ki, adamın tükləri biz-biz olur. Bir anlıq elə təsəvvür yaranır ki, məgər ordu bu qədərmi vahiməli yerdir?

Əlbəttə, həsrət, darıxmaq bunlar hər bir insana xas məsələlərdir. Tamamilə normaldır ki, ana əsgərliyə yola saldığı, yaxud qarşıladığı oğlunu qucaqlayıb ağlasın. Ancaq telekanalların bunu çəkib göstərməsi qətiyyən doğru deyil. Çünki bu cür yanlış təqdimat, “şoular” yeniyetmə və gənclərə, valideynlərə, bütövlükdə cəmiyyətə neqativ psixoloji təsir göstərir. Ən əsası, telekanallarda bu cür vay-şivənlər ordumuzun imicini zədələyir. Çoxlarında belə təəssürat yaranır ki, “yazıq əsgər”...

Axı, əsgəri yazıq görkəmində təqdim etməzlər, bu mənəvi cinayətdir!

Bu cür verilişlərin formatı mütləq dəyişməlidir. Fikrimcə, telekanalların rəhbərləri, həmçinin Müdafiə Nazirliyinin müvafiq şəxsləri, MTRŞ bu cür verilişlərin normal məcraya salınması üçün göstərişlər verməlidirlər.

Əlbəttə, dünyanın heç bir ordusu ideal deyil. Anlayıram, başa düşürəm ki, hərbi xidmət zamanı şəhid olanlar, yaralananlar da az deyil. Eyni zamanda ordu sanatoriya deyil, orada çətinliklər də var.

Yeri gəlmişkən, uzun illərdir ekspertlər bu qənaətdədir ki, ordu ilə bağlı fobiyanı sıfıra endirmək üçün alternativ hərbi xidmət haqda əsasnamə qəbul edilməlidir. Yəni kiminsə səngərdə dayanmağa cəsarəti çatmırsa, buyursun, bu 1 il 6 ay müddətində ordu uçun fəhlə işləsin.

Bu baxımdan peşəkar ordu prinsiplərinə keçid artıq zərurətdir. Bu başqa bir mövzunun söhbətidir...

Hər hansı bir dövrdən və ordu formasından asılı olmayaraq, əsgərlik haqda düşüncələri “göz yaşlarında boğmaq” doğru metod deyil. Məsələn, Rusiya, Türkiyə telekanallarında ordu, əsgər həyatı ilə bağlı çox maraqlı tele-proyektlər var. Heç olmasa onlara baxın.

Biz istəsək də, istəməsək də, telekanallar evlərə “icazəsiz” girir. Odur ki, heç olmasa dövlətin bel sütunu olan ordumuzun imicinə xələl gətirən verilişləri abıra salmaq gərəkir.



Eldar Mahmudov



Vəli Ələsgərov

# Naxçıvan MTN-in şefi həbs olundu - Eldar Mahmudov ətrafında mühasirə daralır

## Həbsin “formal səbəb”i təmir-tikinti işlərinə ayrılmış vəsaitin mənimsənilməsidir, amma...

**Naxçıvan Muxtar Respublikanın keçmiş milli təhlükəsizlik naziri Vəli Ələsgərov həbs olunub. İndiyədək onun həbs edildiyi, ev dustaqlığında saxlanıldığı barədə məlumatlar bir-birini əvəz edirdi. “Turan” agentliyinin Naxçıvandakı mənbələri sabiq nazirin həbs olunduğunu təsdiqləyib.**

Həbsin “formal səbəbi” Naxçıvan MTN-in binasında təmir-tikinti işlərinə ayrılmış vəsaitin mənimsənilməsidir. Əsl səbəb isə başqadır - Vəli Ələsgərov ləğv edilmiş MTN-in sabiq şefi Eldar Mahmudovla yaxın əlaqələrinin güdazına gedib. Onun həbsi sabiq nazir Eldar Mahmudovun ətrafında halqanın daralması kimi qiymətləndirilir. Bildirilir ki, V.Ələsgərov E.Mahmudovun kriminal çetesinə daxil olmaqla qanunsuz dinləmələr həyata keçirməsinə qeyri-rəsmi göstərişlər verib. Bu yolla əldə olunan məlumatlardan sonradan siyasi şantaj vasitəsi kimi istifadə olunması nəzərdə tutulub. Hələlik qanunsuz dinləmələr yolu ilə əldə edilmiş materiallar vasitəsi ilə Naxçıvanın hansı vəzifəli şəxslərinin şantaj olunması haqda dəqiq məlumatlar yoxdur. Amma istisna deyil ki, belə şantajla üz-üzə qalan muxtar respublika rəhbərliyinə daxil olan şəxslər olub.

Maraqlıdır ki, vəzifəsindən çıxarılana qədər V.Ələsgərov Naxçıvanda Vasif Talıbovun yaxın adamı kimi ad çıxarmışdı. Lakin postunu itirəndən sonra V.Talıbovla münasibətlərinin yalnız görüntü xatirinə olduğu da üzə çıxıb. Əslində V.Ələsgərov bu görüntünü yaratmaqla Eldar Mahmudovla münasibətlərini pərdələməyə çalışıb və buna nail ola bilib. V.Ələsgərov bir neçə il əvvəl Naxçıvan çayının qırağında və Batabat adlanan kurort ərazidə E.Mahmudov üçün çox möhtəşəm 2 villa da inşa etdirmişdi. Həmin vaxt bu məsələ Naxçıvan Ali Məclisində qeyri-rəsmi müzakirələrə səbəb olub. V.Ələsgərov vəziyyətdən çıxmaq üçün belə villaların E.Mahmudova bütün rayonlarda MTN-in yerli şöbələrini rəisləri tərəfindən tikdirdiyini deyibmiş. Artıq V.Ələsgərovun E.Mahmudov üçün tikdirdiyi villa sökülüb. Batabat adlanan kurort ərazisində E.Mahmudov üçün tikilən başqa bir villa isə müsadirə olunub.

E.Mahmudov 2015-ci il oktyabrın 17-də vəzifəsini itirəndən sonra Vəli Ələsgərovun onunla şəxsi maraqlara əsaslanan gizli əlaqələri haqda da xeyli materiallar ortaya çıxdı. Aydın oldu ki, V.Ələsgərov da tezliklə kreslosunu itirəcək. Belə də oldu - dekabrın 18-də onu vəzifəsindən uzaqlaşdırdılar və ləğv olunmuş MTN-in bazasında yaradılmış Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsinə Fazil Ələkbərov təyinat aldı.

İndi məlum olur ki, V.Ələsgərov həmin vaxtdan ev dustaqlığında olub. Onun Naxçıvan Ali Məclisinin rəhbərliyinə daxil olan şəxslərin qanunsuz dinləmələr həyata keçirməsi haqda da xəbərlər var.

Vəli Ələsgərovun Naxçıvandakı obyektləri, “XI əsr” adlı restoranı və ona bitişik marketi, pivə evi sökülüb. V.Ələsgərovun yaxın qohumlarının hamısı işdən çıxarılıb. Qohumlarının şəxsi avtomobillərində MTN-in 009 nömrəsi olub. Nömrələrin hamısı geri alınıb. Onların kommersiya obyektləri və əmlaklarının bir hissəsi əllərindən alınıb.

Yada salaq ki, ötən il oktyabrın 17-də MTN-də aparılan “təmizləmə”lər qurumun ləğv olunması, 20 MTN əməkdaşının həbsi ilə sonuclandı. Lakin E.Mahmudov gözləniləndən əksinə olaraq həbsə alınmadı. Onun 10 illik fəaliyyəti nəticəsində dövlətə, ayrı-ayrı nüfuz sahiblərinin maraqlarına vurduğu ziyanın ödənməsi müqabilində azadlıqda qala bilməsi haqda xəbərlər var.

Görünən budur ki, E.Mahmudovun yaxın ətrafına daxil olan şəxsləri həbs etməklə istintaq addım-addım eks-nazirin ətrafında halqanı daraldır. Hazırda MTN-də baş verən qanunsuzluqlarla bağlı Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi istintaq olunur. Baş Prokurorluğun rəsmi məlumatına görə, iş üzrə istintaqa 22 şəxs cəlb olunub. 1 nəfər axtarışda, 1 şəxs isə ev dustaqlığındadır. İş üzrə 130 epizod araşdırılır. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınıb.

❑ E.HÜSEYNOV

# “Cəza müddətimi sona qədər çəkməyə köklənmişdim...”

## Başqan müşaviri kimi həbs edilib müavin kimi azadlığa çıxan Yadigar Sadıqov “Yeni Müsavat”a danışdı

**Martın 17-də prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə azadlığa buraxılan məhbuslardan biri də Müsavat başqanının müavini Yadigar Sadıqovdur. Başqan müşaviri kimi həbs edilən və müavin kimi azadlığa çıxan Sadıqovun hazırda nə işlə məşğul olması, gələcək siyasi planları ilə maraqlandıq. Keçmiş vicdan məhbusuna müxalifətin indiki durumu ilə bağlı da suallarımız oldu.**



Yadigar bəy azadlığa çıxdığı 10 gün müddətində siyasi fəaliyyətlə əsasən sosial şəbəkələrdə məşğul olduğunu söylədi: “Həbsə düşəndə başqan müşaviri idim, indi isə başqan müaviniyəm. Daha çox siyasi fəaliyyətlə məşğul olmaq vacibdir. Planım ondan ibarətdir ki, partiyaya daha çox zaman ayırım. Açığı, cəza müddətimi sona qədər çəkməyə köklənmişdim. Çünki son illərin təcrübəsi göstərib ki, əfv yazmayan məhbusların azadlığa çıxması mümkünsüzdür. Fevralın sonlarında məlumat aldım ki, Prezident Administrasiyasından sənədlərimi istəyiblər. Amma yenə düşünürdüm ki, sonda məni əfv siyahısına salmaqdan imtina edəcəklər. Martın 17-də ANS telekanalına baxırdım ki, dostlarımdan kimlər əfvə düşüb. Birinci Tofiq Yaqublunun, ardınca da mənim adımı çəkdilər”.

### “Müxalifət qüvvələrinin indiki məqamda birləşməsini real saymıram”

Başqan müavini azadlığa çıxması ilə bağlı sevincini gizlətmədi: “Təbii ki, istənilən məhbus azadlığa buraxılmasına sevinir. Deyilsə ki, məhbus azadlığa çıxmaq istəmirdi, bu şişirtmə olardı. Bir şeyi unutmaq olmaz ki, heç bir günah işləmədən azadlıqda olmağı haqq edən insanam. Öz haqqıma qovuşmaq məndə məmnunluq yaradır. Doğmalarınla yaxın saatlarda görüşmək hissi həbsxanada olan məhbus üçün əvəzolunmaz sevincdir”.

Sadıqov gələcək planlarından da danışdı: “Hakimiyyətin müəllim kimi fəaliyyətimə imkan verəcəyi inandırıcı görünmür. Çünki partiyanın siyasətini cəmiyyətə çatdırmaq güclü silahdır. Bu baxımdan publisistika ilə məşğul olmaq daha yaxşı olardı. Başqan müavini olmaq Müsavatın rəhbərliyinə daxil olmaq deməkdir. Müşavirlikdən fərqlidir. Çünki müşavirlik daha sərbəstdir. Ola bilər ki, müşavirin mövqeyi partiya ilə üst-üstə düşməsin. Amma müavinlik belə deyil. Cəmiyyətin müavinin açıqlamalarına diqqəti fərqlidir. Bunları nəzərə almaq vacibdir”.

Keçmiş vicdan məhbusu səhhətindən də söz açdı: “Ürəyimdə müəyyən problemlər var. Həbsdən öncə bu problem var idi. Onun sağalması mümkün deyil. Nəzarət etmək lazımdır ki, həyat üçün təhlükə həddinə çatmasın. Son müayinələrdən sonra hələ ki o həddə deyil”.

Müsavat başqanının müavini Azərbaycanın demokratik düşərgə daxilində, xüsusilə, Müsavat və AXCP arasında olan soyuq münasibətlərə də toxundu: “Müsavat Milli Şuranı tərk edərkən verdiyi bəyanatda demokratik mübarizədə Milli Şura ilə əməkdaşlığa hazır olduğunu bəyan etmişdi. Bu barədə heç bir problem indinin özündə də yoxdur. Təəssüflər olsun ki, qarşı tərəf Milli Şuradan çıxmağımızı xəyanət kimi qələmə verdi. Bununla qətiyyən razı deyiləm. Təbii ki, könül qüvvələrin birləşməsini istəyər. Amma indiki məqamda bunu real görmürəm. Hər hansı bir cəhd xeyirdən çox ziyan verəcək. Yenidən mübahisələr, qarışıqlı ittihamlar qızışacaq. Bu baxımdan belə davam etmək zorundayıq. Gələcəkdə bəlkə də daha uyğun variant yaranacaq. Azadlıqda olduğum 10 gün müddətində müxalifətin indiki halda gücünü qiymətləndirmək imkanım olmayıb. Həbs olduğum vaxt seçkiöncəsi idi. Müzakirələr daha çox idi. Gündəm də aşıb-daşırdı. Amma indi belə müzakirələr yoxdur. Siyasi qurumlar sakit şəkildə fəaliyyət göstərirlər. Müsavat Partiyası öz fəaliyyətini bu şəkildə aparır. Həbs olunduğum zamanla indiki zamanın siyasi mühitini müqayisə etmək qüsurludur. İndiki vəziyyətdə demokratik mübarizəyə öz töhfəmi daha çox verəcəm”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

**"Baxış bucağı"**

**Son zamanlar Azərbaycanda ictimai-siyasi proseslərdə müsbət dinamikanın müşahidə olunması, vətəndaş cəmiyyətinin və siyasi partiyaların həbsdə olan bir qrup nümayəndələrinin əfv fərmanı ilə azadlığa buraxılması, iqtisadi məsələlərlə əlaqədar qanunvericiliyə dəyişikliklər təqdir olunur. İllər öncə, hətta bir sıra ekspertlərin bədbin proqnozlar verdiyi halda, Azərbaycanda islahatlara başlanılacağı barədə optimist yanaşmaları ilə, özünün etiraf etdiyi kimi, hətta avropalıları da təəccübləndirən "Turan" agentliyinin direktoru Mehman Əliyevlə durum dəyərləndirməsi etməyə ehtiyac duyduq. Qeyd edək ki, bu həftə, daha dəqiq desək, martın 31-də prezident İlham Əliyev Vaşinqtonda keçiriləcək IV nüvə təhlükəsizliyi sammitində iştirak etmək üçün ABŞ-a səfər edəcək. Qeyd edək ki, Azərbaycan prezidenti hələ ötən ilin dekabrında amerikalı həmkarı Obamadan sammitə dəvət məktubu almışdı. Müsahibimizdən əvvəlcə bu səfərlə bağlı fikirlərini soruşduq:**



# "Dəyişiklik qaçılmaz olacaq"

## Mehman Əliyev: "Azərbaycan ayaq üstə dayanan böyük bir oğlandır, ona görə də özü hərəkət etməlidir"

## "Hakimiyyətin beynəlxalq arenada da, daxildə də dayaqları kifayət qədər zəifləyib"

***- Mehman bəy, prezidentin Amerika səfəri ilə bağlı gözləntilərinizi bilmək istərdik. Bu səfər, prezidentlərin görüşü Azərbaycan-ABŞ münasibətləri, həmçinin ölkəmizdəki durum dəyişikliyi ilə bağlı hansı yeniliklərə səbəb ola bilər?***

- Mən bu səfəri noyabr ayında həyata keçirilən Antalya səfərinin (prezidentin G-20-də iştirakından söhbət gedir-E.P.) davamı kimi qiymətləndirirəm. Antalya səfəri ərəfəsində Azərbaycan-Amerika işçi qrupu yaradılmışdı. Orda ABŞ-ı narahat edən məsələlər müzakirə olunurdu. Demək olar ki, işçi qrupu son olaraq hansısa bir razılaşma əldə etmişdi. Çünki danışıqlar kifayət qədər çətin gedirdi və Amerika tərəfi bu danışıqlardan xeyli narazı idi. G-20-də Obama ilə əlsıxma mərasimi onu göstərdi ki, hansısa nəticələr əldə olunub. Obamanın Əliyevlə görüşməsi o demək idi ki, işçi qrupunun razılaşmasından xəbərim var, gedin, işləyin. İndi ikinci mərhələ gəlir. Antalya səfəri ərəfəsində müəyyən islahatlara qərar verilmişdi, islahatlarla bağlı prezidentin yanında xüsusi olaraq köməkçi statusunda bir xidmət yaradılmışdı və islahatlarla əlaqədar qanunlara dəyişikliklər formasında işlər başlayıb. Bundan sonra islahatlar paketi gözlənilir. Mən hesab edirəm ki, hökumətdə də dəyişikliklər olmalıdır. 14 nəfər siyasi məhbusun azadlığa buraxılmasının ardınca hüquq müdafiəçisi İntiqam Əliyevin də 28 martda azadlığa buraxılması gözlənilir. Bunun ardınca növbəti addımlar atılacaq. Yəni bu, o deməkdir ki, İlham Əliyevin səfəri ərəfəsində müəyyən addımlar atılıb. Antalya görüşünü prezident Ərdoğan hazırlayırdı, vasitəçiliyi yüksək səviyyədə Türkiyə edirdi. Nyu-York sammiti ərəfəsində İlham Əliyev Türkiyəyə səfər etdi. Yəqin ki, bu səfərdə qarşıdakı sammitlə əlaqədar planlaşma da aparılıb, müəyyən məsələlər razılaşdırılıb və Amerika tərəfinə çatdırılıb. Gözləmək olar ki, sammitdən sonra növbəti addımlar atılacaq. Ona görə də mən gözləyirəm ki, bu dəfə Nyu-Yorkda "salam-sağ ol" yox, ən azı 5-10 dəqiqəlik söhbət olacaq. Ona görə də mən Amerika səfərinə islahatlar ərəfəsində reallaşdırılan bir səfər kimi də baxıram. Yeni Azərbaycan-Amerika münasibətlərində daha konstruktiv və daha praqmatik addımların atılması mərhələsi başlayır.

***- Belə qənaətə gəlmək olarmı ki, hakimiyyət artıq yeni mərhələyə adlamaqla bağlı prinsipial qərarını verib?***

- Prinsipcə, o proses başlayıb. İqtisadi böhran hakimiyyəti məcbur edir. Qərbin yardımı, dəstəyi olmasa - burada söhbət texniki məsələlərdən də gedir, vəsaitlərdən də - vəziyyət kifayət qədər pis olacaq. Bunu Azərbaycanda dərk edirlər. Bu mənada şərait özü məcbur edir ki, bu addımlar atılsın.

***- Amma prezidentin köməkçisi Əli Həsənov bir müddət öncə bu kimi arqumentlərə cavab olaraq bildirdi ki, Azərbaycanın kifayət qədər valyuta ehtiyatları olduğu üçün heç bir ölkədən maliyyə təmənnası yoxdur. Bəlkə islahatlarla əlaqədar, yaxud Qərblə münasibətlərdəki yeni gəlişmənin səbəbləri başqadır...***

- İş ondadır ki, Əli Həsənovun dediyi real vəziyyətə əsaslanmır. Hansı ehtiyatlardan danışır? Manat iki dəfə devalvasiyaya uğrayıb, mart ayından milli valyuta yenidən dəyərdən düşür, aprel, may aylarında da bu prosesin davam edəcəyi gözlənilir. Onda niyə devalvasiyaya getdilər? Mərkəzi Bankın valyuta ehtiyatları son 1 ildə 8 milyarddan 3 milyarda enib, bəlkə də indi ondan da azdır. Real vəziyyət budur. Neft Fondu elə bir fond deyil ki, sən ordan istədiyin qədər valyuta götürüb istifadə edəsən. Orda da məsuliyyət, öhdəliklər var. Üstəlik, Neft Fondunun əsas vəsaitləri Azərbaycanda deyil. Heç kəs imkan verməz ki, o pullar elə-belə götürülsün və xərclənsin. Lap o pulları bir-iki ilə xərclədik, sonra nə olacaq? Fakt budur ki, iqtisadiyyatda ciddi böhran var, vəziyyət kifayət qədər ağırdır. Bu gün Azərbaycan hökuməti Qərb institutlarından, Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı, Avropa Yenidənqurma Bankından 10 milyard vəsait istəyir. Qərb də deyir ki, vəziyyəti stabilləşdirmək, ya da dəyişmək üçün sizə azı 20-30 milyard lazımdır. Bizim elə Neft Fondunda təxminən o qədər vəsait var, deyəsən, 36 milyard qalıb. Bu mənada Azərbaycan tərəfi Qərbin dəstəyindən kifayət qədər asılıdır.

***- Xatırladım ki, hələ devalvasiyanın olmadığı, neft gəlirlərinin ölkəmizə axdığı dövrdə siz hökumətin islahatlara gedəcəyini nikbinliklə deyirdiniz. Bu mənada demək olarmı ki, islahatlar qərarını zəruri edən başqa amillər də var?***

- Mən demişəm ki, Azərbaycan hakimiyyəti kifayət qədər ağır duruma düşüb, ciddi zərbə alıb və zəif vəziyyətdədir. 3-4 il bundan qabaq İlham Əliyev deyirdi ki, bizdə ümumi daxili məhsulun artımı 35 faizdir, biz analoqu olmayan ölkəyik, inkişafdayıq və s. Birdən-birə hər şey dağıldı, getdi. Bu, çox ciddi məsələdir. Hakimiyyətin beynəlxalq arenada da, daxildə də dayaqları kifayət qədər zəifləyib. Son 6-7 ayda əsas dayaq olan neft amili əldən getdi, bank-maliyyə sistemi çökdü, sonra təhlükəsizlik sistemi çökdü, hələ başqa məsələləri demirəm. Beynəlxalq Bankın vəziyyəti göz önündə, hökumətin daxilindəki ziddiyyətlər, problemlər özünü göstərməyə başlayıb. Ölkədə bu vəziyyəti müxalifət, vətəndaş cəmiyyəti, media yaratmayıb. Azərbaycan hakimiyyəti son illər ərzində vətəndaş cəmiyyətini sıxışdırıb, darmadağın edib, medianı, siyasi partiyaları, biznesi bu günə salıb. Yəni bütün sahələri maksimal dərəcədə monopollaşdırmaq və imkan verməmək ki, Azərbaycan cəmiyyəti öz sözünü deyə bilsin. Yəni vaxtilə bunlar narahat idilər, deyirdilər "Azərbaycanda məxməri inqilab hazırlanır, Suriya, Ukrayna, ya Gürcüstan variantı hazırlanır". O zaman preventiv addımlar atan bu hakimiyyət başa düşmürdü ki, əgər burda aparılan siyasət təhlükəsizliyin qarantı olan ABŞ-ın maraqlarına uyğun deyilsə, deməli, nə vətəndaş cəmiyyəti, nə media, nə siyasi partiyaların zərərsizləşdirməsi ilə sistemi bu cür saxlamaq və davam etdirmək mümkün olmayacaq. Ona görə də bu, baş verdi. Hesab edirəm ki, hakimiyyət bunu gözləmirdi. Onlar elə deyirdilər ki, hər şey əllərindədir, heç kim Azərbaycanda heç nə edə bilməz. Bu sistemin kifayət qədər daxili problemləri olduğuna görə mövcud vəziyyət yarandı. Mən hesab edirəm ki, burada daha çox obyektiv məsələlər rol oynayır. Yəni ki, neftin qiymətinin düşməsi, maliyyə böhranının yaranması məsələləri var. Mən hələ demirəm ki, subyektiv şəkildə ABŞ Konqresi sabah Azərbaycana qarşı ciddi addımlar atmağa başlayacaq. Onda nə baş verəcək?

***- Azərbaycana qarşı belə bir təhlükə varmı, yoxsa "907-ci düzəliş" kimi sanksiya təhdidləri də "Domokl qılıncı" kimi başımızın üstündən asılacaq?***

- Bu, hakimiyyətdən asılıdır. İslahatlara gedəcəksə - gedir artıq - əgər ciddi islahatlara gediləcəksə, deməli, sanksiyalar olmayacaq. Əks halda olacaq. Çünki ABŞ-ın vaxtı yoxdur ki, Azərbaycan hakimiyyəti ilə uzun müddət oyun oynasın və gözləsin ki, haçansa demokratiyaya, normal bazar iqtisadiyyatına keçməyə, beynəlxalq qaydalarla oturub-durmağa hazır olacaq. Yəni uşaqlıq dövrü keçib, artıq Azərbaycan ayaq üstə dayanan böyük bir oğlandır, ona görə də özü hərəkət etməlidir. Heç kəs də onunla uşaq kimi oynamayacaq, o dövr getdi.

***- Amma bu da var ki, Qərb son illərdə yürütdüyü siyasətlə, sərgilədiyi davranışları ilə özünə, dəyərlərinə olan inamı xeyli sarsıtdı...***

- Sizinlə razıyam. Aydındır ki, biz yaşadığımız ölkəni istəyən insanlarıq və hər zaman istəmişik ki, bu dəyişikliklər çox tez olsun, ABŞ və Avropanın mövqeyi daha sərt olsun. Çünki biz bu ölkədə yaşayırıq və maraqlarımız var. Amma onların da müəyyən problemləri var. Bu dünyada tək Azərbaycan deyil ki, onunla məşğul olsunlar... Onların yanaşması regional, miqyaslı yanaşmadır. Biz görürük ki, təkcə neftin qiymətinin düşməsi Azərbaycanı, İranı, Venesuelanı, Nigeriyanı nə günə qoyub və bölgədə dəyişikliklərə hansı təkanlar verib.

***- Mehman bəy, fərqli arqumentlər də var. Məsələn, hesab olunur ki, nefti-qazı, üstəlik valyuta ehtiyatlarına malik olmayan qonşu ölkələrlə müqayisədə Azərbaycan daha yaxşı durumdadır. Bu yanaşmanı bölüşürsünüzmü?***

- Azərbaycan yaxşı durumda deyil. Nə üçün? İş ondadır ki, Ermənistanı, yaxud Gürcüstanı götürsək, onların büdcələri real iqtisadi imkanlara bağlıdır. Müəyyən dərəcədə bizdən kasıb ola bilərlər, ancaq bizdən daha stabildirlər. Çünki onların bütün imkanları real daxili resurslara bağlıdır. O da insan kapitalıdır, nəyi bacarırsan, yaradırsan, düzəldirsən. Bizdə isə çox maraqlı bir şey baş verdi. İş ondadır ki, Səudiyyə Ərəbistanı, Azərbaycan, İran, Venesuela, Rusiya 2006-cı ildən sonra neftin qiyməti artandan sonra öz büdcələrini 7-8 dəfə artırdılar, büdcəni neftin üstündə qurdular. Ona görə də onların çökməsi cəmiyyət üçün kifayət qədər ağır oldu. Çünki cəmiyyət yaxşı yaşamağa öyrəşib, gündən-günə vəziyyət yaxşılaşır, evlər, maşınlar və s. Ancaq qəfildən sən hər şeyi itirirsən, bu, dəhşətli bir şeydir. Azərbaycanda və bir sıra başqa ölkələrdə bu baş verdi. Bizim cəmiyyət 2003-2004-cü illərdəki səviyyədə yaşamaq istəməz, ona görə də narazılıq artır. Məmurların maaşı 500-1000 manat idisə, konvertdə 5-10 min manat alırdılar. Onlar 500 manatlıq maaşla yaşamağa öyrəşməyiblər. Hələ mən demirəm ki, qiymətlər nə qədər qalxıb, ya manatın dəyəri düşüb. Siz təsəvvür edirsiniz, bu gün insanlar nə gündədir? Vəziyyət hamıya təsir edib. Vaxtilə polis 1000 manat alırdısa, böyük pul idi. Ancaq indi 1000 manat böyük pul deyil. Ona görə də narazılıq artır, rüşvət çoxalır.

***- Ancaq sonuncu əfv fərmanına xeyli siyasi məhbusun adının salınması, qanunlara edilən müsbət dəyişikliklər, hətta Rüstəm İbrahimbəyovun ölkəyə girişinə şərait yaradılması, İntiqam Əliyevin hökmü ilə bağlı protest verilməsi cəmiyyətdə yumşalmanın, açılımın olması görüntüsünü yaradır. Razılaşırsınız?***

- Əlbəttə ki, dəyişikliklər var, bu da ümumi vəziyyətlə bağlıdır. Bu yumşalma, yenidən baxış, münasibətləri təftiş eləmək var və artıq bu, normaya çevrilməyə başlayacaq. Çünki zaman başqa, problemlər başqadır. Biz hələ bu prosesin astanasındayıq. Yarı demokratiya ola bilmir. Əgər demokratiyaya keçid başlayırsa və ilk növbədə bazar iqtisadiyyatında liberallaşma, monopoliyanın götürülməsi, azad bazarın yaranması başlayırsa, bu, o deməkdir ki, cəmiyyət azad olmağa başlayır. Bunun ardınca azad seçki, azad fəaliyyət, azad söz ortalığa qoyulur və beləcə cəmiyyət dəyişməyə başlayır. Biz artıq buna doğru gedirik, bu, qaçılmazdır və qarşısını almaq mümkün deyil. 90-cı illərdə müəyyən iqtisadi azadlıqlar var idi. Bunun əsasında siyasi partiyalar fəaliyyət göstərirdi, vətəndaş cəmiyyəti mövcud idi, medialar fəaliyyət göstərirdi, yəni bu sistem var idi. 2000-ci illərdən isə bu sistemi çökdürməyə başladılar. İndi yenidən o vəziyyətə qayıdılırsa, bu sistem dəyişməyə başlayırsa, demək, sistem tam dəyişəcək, dəyişiklik qaçılmaz olacaq...

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016



# Səsi çıxdı nəhayət...

Zamin HACI
zaminhaci@gmail.com

**"Buruqların gəlməz saya,
Ucalırsan günə, aya.
Səs salırsan bu dünyaya,
Gözəl Bakı, gözəl Bakı!**

*(Zeynal Cabbarzadə)*

**Deyir dünən Bakının Səbayel və Yasamal rayonlarında nəsə gurultu səsi eşidilmişdir. Bununla əlaqədar camaat narahat olmuşdur, dövlət orqanları isə düz-əməlli bir cavab verə bilməmişdir.**

Halbuki, bu gurultunun mənbəyini tapmaq olduqca asan idi. İlk növbədə, səsin çıxdığı rayona diqqət etməliyik. Niyə məhz Səbayel? Binəqədi, Nəsimi, Sabunçu niyə guruldamır? Çünki Səbayeldə dövlət, hakimiyyət orqanlarımız, o cümlədən həşəmətli Yeni Azərbaycan Partiyası yerləşir! Bu gurultu da onların cahanşümul fəaliyyətinin, Azərbaycanın dünyada analoqu olmayan iqtisadi yüksəlişinin səsidir, əks-sədasıdır! Ona görə indi gəlib çatır ki, bir müddətdir neft ölüb, manat çezib, sakitlik yaranıb. Yoxsa gurultu qabaq da olurdu, bərk getdiyimizə görə hiss eləmirdik. Hələ əsas gurultu-zırıltı indən belə gözlənilir, hazırlaşın.

Allah baisin evini yıxsın, yoxsa Amerikaya çatıb onu ötməyimizə az qalmışdı. Uşaq yeməyi istehsal edə bilməməyimizə, adi aftafa buraxmaqda çətinlik çəkməyimizə baxmayın, kosmik dövlət olmuşduq. Elə indi də yanılmıramsa, kosmik dövlətik, sadəcə, peykimizi qarışıqlıqda deyəsən itirmişik. Yoxsa bir xeyrini görərdik, Rabitə Nazirliyinin az qala bütün rəhbərliyini tutub zindana salmazdılar.

Bir az paxıllıq da rol oynayır. Türkiyədir, bizik, ruslardır - ətrafımız düşmənlə doludur. Hamı bizim pisliyimizi istəyir, çünki rəhbərlərimiz yaxşıdır! Başqa millətlər baxırlar, deyirlər kaş bizim də belə prezidentlərimiz olaydı, yandıqlarından ayağımızın altını qazırlar, badalaq vururlar. Misal üçün, Naxçıvanda çıxan "NAZ-Lifan" avtomobilləri planetə səs salmışdı. Alman mühəndislər gecələr gəlib İlandağın ətəyində ilana-çayana yem ola-ola texniki casusluq edirdilər, maşının sirlərini oğurlamaq istəyirdilər. İsveçin kralı, Londonun meri, canım sənə desin, Hollandiyanın baş naziri velosipedi atıb NAZ-Lifan minmişdilər.

Bəs axırı nə oldu? Heç zad. Çinlilər xəbisliklə hissələri göndərməyi dayandırdılar, maşın istehsalı oldu sıfır. Deyilənə görə bu ilin 3 ayında Naxçıvandakı o məşhur zavod bir dənə də maşın buraxmamışdır. (Zavod deyəndə bir az balaca çıxır, əslində onu palatka şəklində istənilən yerdə qurmaq mümkündür, çünki içində heç bir dəzgah-zad yoxdur. Eləcə quru divardır, "zapçast" gəlirdi, ondan bütün maşını qayırırdılar). Çin dövləti NAZ-Lifan-ın mod getməyinə baxıb, indi ancaq özləri buraxmaq qərarına gəliblər. Halbuki, həmin keyfiyyət olmayacaqdır. Gərək maşın Naxçıvanın havasını, suyunu udsun, o zaman bazara iddialı çıxa, yolların ağasına çevrilə bilər. Yoxsa Gəncə də bir ara maşın yığırdı, heç "bir qısmat" bazar ələ keçirə bilmədi.

Üstəlik, uca millətimiz də özünü bir qədər xam aparır. Əziz yoldaşlar, bu hələ harasıdır, gərək siz yayda Bakını tir-tir titrədəcək başqa gurultuya indidən hazır olasınız. Formula-1 yarışlarındakı maşınlar qaz verəndə səsindən bəlkə İçərişəhərin yarısı uçdu. Prinsipcə, uçur-uçsun də, köhnə yerlərdir hamısı. Yerində pinqvin qüllələri tikərik. Təki Xose Alonso, Şimşək Makquin, Meytor, nə bilim, Mixael Şumaxer bizdən narazı getməsin.

Yeri gəlmişkən, bəzi ağzıgöyçəklər donquldanırlar, deyirlər avtomobil istehsal edə bilməyən, xaricdən maşın alışı da son 1 ildə 3-4 dəfə aşağı düşən bir ölkənin sürətli maşın yarışı keçirməsi absurddur, gülüncdür. Heç elə şey yoxdur. Ona qalsa Ermənistan da boşalıb, ancaq hər gün cəbhədən Zakir müəllim bir Kamaz erməni qulağı gətirir. Yaxud, saatlar qabağa çəkilmir, Artur müəllim isə yerində qalır. Bakıda meymun yaşamır, ancaq Hacıbala müəllim hər yerə palma əkmişdir.

Sözümün canı odur ki, bunlar bir-birinə mane olan şeylər deyil. Hünər maşın olmayan yerdə maşın yarışı keçirməkdir! Çay axmayan yerdə körpü tikməkdir. Səs çıxmayan ərazidə gurultu qoparmaqdır.

# Azərbaycanın böyük güclər yanında geosiyasi çəkisi artır

**Rusiya diplomatiyasının "ağır topu" sayılan xarici işlər naziri Sergey Lavrovun bu həftə Bakıya səfər edəcəyi gözlənilir. Ziyarətin tarixi haqda danışan Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova ötən həftəsonu deyib ki, səfər üzərində iş gedir. Sitat: "Səfərin tarixi və müzakirə olunacaq məsələlər Azərbaycan tərəfi ilə dəqiqləşdirilir. Dəqiqləşmə aparılandan sonra əlavə məlumat veriləcək".**




# Lavrov Bakıya Putinin xüsusi xahişi və tapşırığı ilə gəlir

Rusiya diplomatiyasının "ağır topu"nun çantasında daha nələr ola bilər? Azərbaycanın strateji önəmi indi həm də onun Moskva-Ankara münasibətlərini normallaşdırmaq bacarığına bağlıdır; rusiyalı ekspert: "Bakı vasitəçilik rolunu öz üzərinə götürməyə hazırdırmı?.."

İstənilən halda bu ziyarət şübhəsiz ki, önəminə görə əvvəlkilərdən kifayət qədər fərqlənəcək. Çünki nazirin səfəri ərəfəsində regional şərtlər mühüm dəyişikliklərə uğrayıb, o sırada Rusiya Suriyadan öz qüvvələrinin böyük hissəsini çıxarıb, Suriya böhranının dinc həlli ilə bağlı müəyyən hərəkətlilik yaranıb, prosesdə Türkiyəyə ehtiyac artıb, Ankara-Moskva münasibətlərində də maraqlı gelişmələr var və s.

Lavrov, yəqin ki, prezident İlham Əliyevlə də görüşəcək - ancaq böyük ehtimalla, ölkə başçısı ABŞ-dan qayıtdıqdan sonra. Söz düşmüşkən, ABŞ prezidenti Barak Obamanın Vaşinqtonda IV Nüvə Təhlükəsizliyi Sammiti çərçivəsində İlham Əliyevlə Serj Sərkisyanı bir araya gətirəcəyi ilə bağlı məlumatlar yayılıb. Kreml isə, bəllidir ki, ABŞ-ın Qarabağ vasitəçiliyinə qısqanc yanaşır. İstisna deyil ki, Lavrovun ziyarəti zamanı Qarabağ məsələsi ətrafında Vaşinqton görüşündən sonra yaranmış situasiyanın dəyərləndirilməsi də olsun.

***

Rusiyalı ekspertlər XİN başçısının Bakı səfərinə mühüm önəm verirlər. Məsələn, tanınmış politoloq Aleksandr Perenciyevin fikrincə, qarşıdakı səfər ilk növbədə Rusiya-Azərbaycan əlaqələrinin indiki durumunun müzakirəsinə, siyasi və iqtisadi məsələlərin razılaşdırılmasına həsr olunacaq. "Terrorizmlə, ilk növbədə də İŞİD-lə mübarizə, Xəzər dənizində özünü göstərən problemli məsələlər və iki ölkə arasında hərbi-texniki əməkdaşlıq məsələləri danışıqlarda əsas mövzulardan olacaq. Şübhəsiz ki, Dağlıq Qarabağ konflikti və ətraf rayonlar probleminin nizama salınması da diqqət mərkəzinə gətiriləcək. Ancaq Qarabağ məsələsində hansısa ciddi irəliləyiş gözləməyə dəymir. Düşünürəm ki, Moskvanın mövqeyi belə formulla ifadə olunur: öncə iqtisadi, yolüstü isə cari siyasi problemləri həll eləmək lazımdır, Qarabağ problemini isə əlverişli iqtisadi bazada həll eləmək lazımdır" - deyib ekspert.

Aydındır ki, politoloq Azərbaycanın Avrasiya İttifaqına qoşulması zəruriliyinə işarə vurur. Lakin Bakının bu məsələdə mövqeyi bəllidir və Rusiyanınkı ilə üst-üstə düşmür: öncə ərazilər boşaldılmalı, sonra iqtisadi-siyasi ittifaqlara qoşulmaq mümkünləşə bilər.

Bəs, rusiyalı nazirin çamadanında daha nələr və ya Putinin Bakıya hansı xahiş-çatdırışları ola bilər?

Perinciyev: "Belə demək olar ki, hazırkı beynəlxalq siyasi şərtlər fonunda rəsmi Bakı Rusiya-Türkiyə konfliktinin həllində vasitəçi ola bilər. Sual da budur ki, Azərbaycan bu rolu öz üzərinə götürməyə hazırdırmı?" Politoloqa görə, məhz bu suala cavab Lavrovun Bakı səfərində həlledici əhəmiyyət daşıyacaq.

"Azərbaycanın mövqeyi dünyanın bu hissəsində hadisələrin inkişafı baxımından olduqca mühüm əhəmiyyət kəsb edir - üstəlik, elə bir vaxtda ki, bu mövqe dünya güc mərkəzlərinin energetika, nəqliyyat və infrastruktur sahələri üzrə strategiyası ilə birbaşa əlaqəlidir. Qərbin Azərbaycanın resurslarından istifadə edərək, Avropanın ehtiyaclarını Rusiyadan yan keçməklə ödəmək və Rusiyanın blokadası üçün yararlanmaq istəyi də unudulmamalıdır". Bu sözləri isə digər rusiyalı tanınmış ekspert Qriqori Trofimçuk Bakıya son vaxtlar Rusiya və Qərbdən gücələnən "emissar axını"nı şərh edərkən bildirib.

Başqa bir tanınmış rusiyalı politoloq və sosioloq Mixail Neyjmakov da hesab edir ki, Azərbaycanın böyük dövlətlər üçün önəmi ciddi şəkildə artıb. "Türkiyə və Azərbaycan prezidentlərinin son Ankara görüşünün yekunu və orada imzalanan sənədlərdə əslində sensasion deyil. Belə danışıqlar zamanı həmişə nə isə kadr arxasında qalır. İstisna deyil ki, bağlı qapılar arxasında Rusiya və İranla danışıqlarda Bakının vasitəçilik rolu müzakirə olunub. Bakının Moskva və Ankara arasında mümkün vasitəçilik rolundan indiyədək çox danışılıb. Bütövlükdə hətta Azərbaycana soyuq münasibətdə olan müşahidəçilər də etiraf edir ki, regionda nüfuz mübarizəsi apara dövlətlər arasında çoxsaylı ziddiyyətlərin həllində Bakının rolu ciddi şəkildə artmaqdıdr" - qeyd edib analitik.

***

Yeri gəlmişkən, Rusiya-Türkiyə münasibətlərində axır vaxtlar bir stabil ılıqlaşma meyli duyulmaqdadır. Xüsusən də Kreml rəsmilərinin son açıqlamaları bu yöndə ümidverici sayıla bilər. Məsələn, Rusiya XİN-in rəsmisi Mariya Zaxarova deyib ki, Ankara-Moskva münasibətlərində konflikt müvəqqətidir. "Əlbəttə ki", - deyə Zaxarova jurnalistin "Ankara-Moskva münaqişəsi müvəqqətidirmi" sualına cavab verərkən deyib.

Öz növbəsində Rusiya Federasiya Şurasının spikeri Valentina Matviyenko eyni gündə söyləyib ki, Kreml Türkiyə ilə münasibətlərin "donunu açmağa" hazırdır, bir şərtlə ki, o, vurulan "Su 24" təyyarəsinə cavabdehliyi etiraf eləsin. "Rusiya-Türkiyə münasibətləri, yumşaq desək, yaxşı deyil. Bildiyiniz kimi, soyuqluq bizim günahımız ucbatından baş verməyib" - deyib spiker və təəssüflə əlavə edib ki, "hələlik Türkiyə tərəfdən məsuliyyətə etiraf eləməklə bağlı heç işarə də yoxdur".

Türkiyə iqtisadiyyat nazirinin müavini Fatih Mətin isə bir neçə gün öncə Sənaye və İş Adamları Dərnəyinin toplantısında söyləyib ki, Rusiya "Su-24" böhranından sonra sərgilədiyi sərt mövqeyindən geri çəkilir, sanksiyalarını geri götürməyə başlayıb.

Bütün bunlardan qabaq isə Rusiya hökuməti və parlamenti qardaş ölkəyə, həm də Azərbaycana jest olaraq qondarma erməni soyqırımını inkara görə cəza nəzərdə tutan qanun layihəsini geri qaytarmış, ardınca Rusiya ilə Türkiyə arasında 1921-ci ildə imzalanmış Moskva dostluq müqaviləsinin, həmin müqavilənin nəticəsi kimi Qars müqaviləsinin (1921) ləğvi təşəbbüsünü rədd eləmişdi.

Nəhayət, Rusiyanın Suriyada hərbi əməliyyatları əsasən dayandırması həm də Türkiyə ilə toqquşmaq istəyinin olmamasını göstərən başqa bir pozitiv jest idi...

***

Göründüyü kimi, Rusiya tərəfində "Su 24" insidenti ilə bağlı əslində müəyyən yumşalma var, Moskvanın ritorikası da əvvəlki deyil. İndi Kreml birmənalı şəkildə üzrxahlıq, kompensasiya, rus pilotu vuranın həbsini tələb eləmir, uzaqbaşı "məsuliyyətin etirafı" şərtini qoyur, yaxud heç bunu da qoymur, əlaqələrin korlanmasından təəssüf ifadə edir.

Bütün bunlar əslində barışıq öncəsi mərhələnin qiymətli əlamətləridir. Qalır bu jest və işarələri praktik məcraya yönəldib də Ankara-Moskva münasibətlərində noyabrın 24-dən başlayan, Azərbaycanı da qəliz duruma salan böhranlı dönəmi qapatmaq. Bundan ötrü rəsmi Bakının vasitəçilik bacarığı həqiqətən də açar rolu oynaya bilərdi. Çünki belə görünür, barışıq üçün Ankaranın da hansısa qarşılıqlı müsbət addımına lüzum olacaq. Azərbaycanın isə qardaş ölkəyə təsir imkanları böyükdür.

Lavrovun qarşıdakı səfəri bu kontekstdə də qiymətli ola bilər. Hər halda, gələn ay Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna qatılmaq üçün Bakıya gələcək. Demək, bir daha saatları Bakı vaxtı ilə tutuşdurmaq imkanı yaranacaq.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

**Milli Şuranın fəxri sədri, mühacirətdə yaşayan xalq yazıçısı Rüstəm İbrahimbəyov qardaşı Maqsud İbrahimbəyovun qəfil ölümündən sonra Bakıya döndü. Martın 23-də Bakıya gələrək qardaşının dəfn təreninə qatılan R.İbrahimbəyov dünən ölkəni tərk edib.**



# Rüstəm İbrahimbəyov Novruz əfvinə necə "düşdü"?

## Milli Şura fəxri sədrinin Azərbaycanda olub-olmamasının siyasi hakimiyyəti artıq maraqlandırmadığı deyilir...

Yada salaq ki, R.İbrahimbəyovun Milli Şura sədri olaraq 2013-cü ildə prezidentliyə namizədliyi irəli sürülmüşdü. Bundan sonra Vergilər Nazirliyi Kinematoqrafçılar İttifaqında səyyar yoxlamalara başlamış, 2009-cu ildə XI "Şərq-Qərb" Bakı Beynəlxalq kinofestivalının keçirilməsi üçün ayrılmış pulların mənimsəndiyi barədə rəsmi xəbər yayılmışdı. Fakt üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci maddəsi (külli miqdarda mənimsəmə və ya israf etmə) maddəsi ilə başlanmış cinayət işi üzrə Kinematoqraflar İtttifaqının nümayəndəsi Lalə Əfəndiyevaya ittiham elan olunmuşdu. İttifaqın rəhbəri Rüstəm İbrahimbəyov isə bu ittihamları qurama adlandıraraq, siyasi fəaliyyəti və hakimiyyəti tənqid edən fikirləri ilə əlaqələndirir və məqsədin onu susdurmaq olduğunu bildirmişdi.

Son nəticədə R.İbrahimbəyovun prezidentliyə namizədliyi qeydə alınmadı və o, mühacirətə yollandı. Ötən müddət ərzində R.İbrahimbəyovun geri dönəcəyi təqdirdə həbs ediləcəyi haqda dəfələrlə xəbərlər yayılmışdı. Xüsusən hakim partiya nümayəndələri tez-tez belə bəyanatlarla çıxış edirdilər.

Adının çəkilməsini istəməyən mənbədən aldığımız məlumata görə R.İbrahimbəyovun ölkəyə gəlişinə və ölkədən çıxmasına hüquqi baxımdan hər hansı əngəl olmayıb və yoxdur. Çünki Rüstəm İbrahimbəyova qarşı əvvəl gündən heç bir cinayət işi və heç bir ittiham olmayıb. Hakim partiya rəsmilərinin dilindən R.İbrahimbəyov haqda səslənən fikirlərin faktiki əsası olmayıb. İttiham R.İbrahimbəyovun işçisinə qarşı olub deyə onun özünün Bakıda saxlanması da gerçəkləşdirilə bilməzdi.

Qaynağımız deyib ki, əgər R.İbrahimbəyov prezident seçkiləri öncəsi ölkəyə qayıtsa idi, onu həbs etmək üçün ittihamlar da ortaya çıxacaqdı. Prezident seçkilərindən iki il sonra onun personası hakimiyyətdəkiləri elə də əndişələndirmir və onun ölkədə olub-olmaması da siyasi hakimiyyət üçün maraq kəsb etmir.

❑ **E.HÜSEYNOV**

# Azərbaycanda korrupsiya ilə mübarizənin "Saakaşvili variantı" mümkündür, əgər...



**Gürcüstanın sabiq prezidenti, Ukraynanın Odessa vilayətinin qubernatoru Mixail Saakaşvili bildirib ki, postsovet respublikalarında 20 nəfər tanınmış korrupsioner məmuru həbs etməklə, orada korrupsiyaya son qoymaq mümkündür. Sabiq prezident öz təcrübəsində bu taktikanın effekt verdiyini bildirib.**

Qeyd edək ki, Azərbaycan iqtidarı da korrupsiyaya qarşı mübarizə aparıldığını elan edib. Kütləvi şəkildə olmasa da ara-sıra korrupsiyaya görə həbslər həyata keçirilir. Bəs, Saakaşvilinin qeyd etdiyi variant Azərbaycanda effekt verə bilərmi?

VİP sədri Əli Əliyev bildirdi ki, toplumlar bir-birinə bənzəyir: "Saakaşvili iki postsovet dövlətinin islahat komandasında aparıcı mövqedə olan siyasətçidir. Onda belə qənaət formalaşıbsa, deməli elədir. Məhz Saakaşvilinin hakimiyyəti dönəmində Gürcüstan demokratik və şəffaf cəmiyyət quruculuğunda nəticəli ola bildi. Hal-hazırda onun Odessa vilayətində apardığı yenidənqurma işləri diqqətə layiqdir. Saakaşvilinin son həyata keçirdiyi antikorrupsiya addımlarına dair bir neçə xırda misal çəkmək istərdim. Odessa limanında uzun illər formalaşmış cinayətkar qruplaşmaların çökdürülməsində, avia daşımalarda monopoliyaların ləğvi miqyaslı və nəticəli təşəbbüslərdir. Korrupsiyanın dövlət orqanlarında qarşısının alınması üçün Ukrayna miqyasında polis orqanlarının heyəti və məhkəmə sisteminin hakimləri tam olaraq vəzifələrindən kənarlaşdırıldı. İdarəçiliyə tamamilə yeni şəxslər cəlb edilirlər. Təbii ki, islahat tam olaraq belə radikal fəaliyyətlə müşayiət olunmalıdır. Lakin bu işlərin fövqündə siyasi rəhbərliyin iradəsi durur. İrimiqyaslı korrupsionerlər dövlət büdcəsinə müdaxilədən kənarlaşdırılmasa, nəticəli islahatlar mümkün deyil".



**Fazil Mustafa:** "Korrupsiyanın vüsət almasının əsas səbəbi odur ki..."



**Əli Əliyev:** "Bu proseslər tədrici, ardıcıl və prinsipial xarakterli olmalıdır..."

Ə.Əliyev hesab edir ki, ölkədə keçid dövrü bitmiş elan olunmalı, oğurlanmış vəsaitə amnistiya elan edilməli və yeni iqtisadi dövr başlamalıdır. Ondan sonra korrupsiya ilə mübarizə radikal vasitələrlə həyata keçirilməlidir: "Qohumbazlıq, yerliçilik, dəstəbazlıq prinsipindən imtina edilməlidir. İndiki iqtidarın əsas üslubundan çəkinəcəyinə inamım azdır. Lakin belə köklü dəyişikliklərə qərar verilməsə, ölkədə korrupsiya ilə mübarizə adı altında bütün tədbirlər görüntü mahiyyəti daşıyacaq. Bu proseslər tədrici, ardıcıl və prinsipial xarakterli olmalıdır".

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa isə hesab edir ki, Azərbaycanda korrupsiya və rüşvətxorluğun kökünün kəsilməsi Saakaşvilinin dediyi variantla mümkün deyil. Çünki cəmiyyətin bütövlükdə düşüncə və dünyagörüşündə ciddi dəyişikliklər baş verməsə, korrupsiyanın yayılmasının qarşısını almaq mümkün olmayacaq: "Tam məsuliyyətlə deyirəm ki, korrupsiyanın vüsət almasının səbəbi cəmiyyətin həddən artıq itaətkar və prinsipsiz davranması ilə bağlı məsələdir. İnsanlar özlərinə aid olan sferada ədalətin qorunması istiqamətində hansısa bir addım atmağa meyilli olmayanda ədaləti artıq məhkəmə də reallaşdırmır. Bunun ardınca məmur da ədaləti qorumur. Nəhayətdə korrupsiya meydana gəlir. Mən məsələnin həbslə çözülməsinin tərəfdarı deyiləm. Maliyyə amnistiyası elan edərək Azərbaycanda hüququn sıfırdan başlanması variantına gedilməsinin tərəfdarıyam. Azərbaycanda bu variant effekt verə bilər. Bu prinsipə keçilməsə, hamı pulunu gizlədəcək, bir korrupsioneri başqa bir korrupsioner əvəz edəcək. Həbs etməklə nəyinsə dəyişəcəyi mümkün görünmür. Azərbaycanda hüququn aliliyinin təmin olunduğu cəmiyyət qurulmalı, yenidən başlanğıc prinsipinə keçilməlidir. Hazırkı vəziyyətdə bu ölkədə ən böyük şirkətlər vergi ödəməkdən yayınırlar. Çünki hamısının himayəsi var. Belə bir aşkarlıq olmayan vəziyyətdə 20 nəfəri də həbs etsən, onun yerinə gələn daha gizli korrupsionerə çeviriləcək. Saakaşvilinin variantı ona görə müəyyən qədər effekt verdi ki, o, Gürcüstanı Rusiya sistemindən nisbətən qopara bildi. Rusiyadan qopan, Qərb dəyərlərinə üstünlük verən sistemlərdə istər-istəməz korrupsiyadan imtina müşahidə olunur. Saakaşvilinin əsas uğuru bu idi".

❑ **Etibar SEYİDAĞA**

# "Daxili işlərə qarışan" diplomatlar



**Xalid KAZIMLI**

**Tarix kitablarında oxuyuruq, Çingiz xandan tutmuş Sultan Süleymana, Şah Qacara qədər, demək olar ki, bütün padşahlar, sultanlar nə zamansa əcnəbi elçiləri öldürdüb, yaxud da rüsvayçılıqla təhqir edərək geriyə, öz ölkəsinə göndəriblər.**

Elçisi öldürülmüş, yaxud təhqir edilmiş hökmdar ləngimədən müharibəyə başlayırdı, çünki elçi, səfir dövlətin namusu sayılırdı.

Günümüzdə də iki dövlətin arası pozulanda ilk təpik səfirlərə dəyir, onları "məsləhətləşmək üçün geriyə çağırırlar". Yaxud hansısa dövlətə iradlar yarananda onun səfirini ölkənin XİN-nə çağırırlar.

Səfirlərlə ən çox problem yaşayan ölkələr birmənalı olaraq avtoritar rejimə malik olanlar, diktaturalardır. Bu tip ölkələrdə vaxtaşırı diplomatik korpusları qınayır, pisləyirlər. Tez-tez yerli ictimaiyyətə duyurulur ki, filan-filan ölkələrin səfirləri ölkəmizin daxili işlərinə qarışır, ölkənin daxili sabitliyini pozmağa, öz düşmənçilik niyyətlərini həyata keçirməyə çalışırlar.

İctimaiyyət belə iddialara, ittihamlara, iftiralara tez və kütləvi şəkildə inanır. Çünki hamı xaricdə olan çox güclü bir məkrli qüvvənin onları yaxşı yaşamağa qoymadığına əmindir. Yerli hökumətdə təqsir yoxdur, günahın hamısı mənfur əcnəbilərdədir, onlar xalqı xoşbəxt olmağa qoymurlar - total təbliğatla başı tovlanmış xalqın əsas düşüncəsi təxminən belədir.

Srağagün bənzər bir hadisə Türkiyədə yaşanıb. Prezident Ərdoğan "Cumhuriyyət" qəzetinin baş redaktoru Can Dündar və qəzetin Ankara nümayəndəsi Erdəm Güldən məhkəməsinə gedən Fransa və Hollandiya konsullarına xəbərdarlıq edərək deyib: "Diplomatiyanın da bir ədəbi var. Sən konsulluq ərazisində hərəkət edə bilərsən, digər şeylər üçün icazə almalısan".

Beləliklə, əcnəbi diplomatların adi bir məhkəmə ziyarəti "ölkənin daxili işlərinə qarışmaq" kimi yozulub.

2003-cü ildə Norveçin ölkəmizdəki sabiq səfiri Steynar Gilin başına gələnləri xatırlayaq. O zaman cənab Gil ölkəmizdə müxaliflərə qarşı total repressiyanın kükrəyəcəyini duyaraq, cəza maşınının qarşısına keçmişdi, öz diplomatik toxunulmazlığından istifadə edərək, bir sıra liderləri məhkəməsiz cəzalandırılmadan xilas etmişdi. Səfir tələb etmişdi ki, heç kəs işgəncəyə məruz qalmasın, məhkəmə ədalətli olsun, müxalifətçilər haqsız yerə cəzalandırılmasın.

Steynar Gilin istədiyi o idi ki, ölkənin qoşulduğu Avropa konvensiyalarının və ölkə konstitusiyasının tələblərinə riayət edilsin. Bunun qarşısında adamı hoydu-hoyduya götürdülər, barəsində hərzə-hədyan danışdılar. Hətta məscidə içkili daxil olduğu barədə sırf böhtan xarakterli şayiə buraxdılar.

Bir dəfə də Yasamal rayon Polis İdarəsinin rəis müavini Çingiz Məmmədov özünü o qədər belibağlı hiss etmişdi ki, ABŞ səfirliyinin təmsilçisinə, Yasamal məhkəməsindəki siyasi motivli məhkəmə prosesini izləmək istəyən Conatan Henikin qarşısını kəsmiş, içəri buraxmamış, hətta ona ingiliscə "Qou avey" ("Rədd ol") demişdi. Ondan qısa müddət sonra Ç.Məmmədov vəzifəsindən "qou avey" edilsə də, bu, əslində diplomatik qalmaqal idi.

İndinin özündə də nə vaxt hansısa səfirliklərin təmsilçiləri siyasi motivli məhkəmələrə gedirsə, dərhal qara siyahıya salınırlar. Halbuki məhkəmə ədalətlidirsə, siyasi sifariş əsasında təşkil olunmayıbsa, onun işində diplomatik korpus nümayəndələrinin, əcnəbi jurnalistlərin iştirakının heç bir qəbahət ola bilməz. Məgər müşahidəçilər hakimin əlindən toxmağı alıb, masaya çırpır, "filan şahidi də dinləyək" deyirlər? Xeyr, bir küncdən oturub baxırlar, qeydlər aparırlar, daha sonra məhkəmənin nə dərəcədə ədalətli olub-olmadığına dair rəylərini bildirirlər.

Əgər bir dövlət Avropa ailəsinin üzvü olmaq istəyirsə, olursa, belə şeylərə hazır olmalıdır. Sən onun paytaxtına gedib müxtəlif tədbirlər təşkil edə bildiyin kimi, o da gəlib eyni şeyləri edəcək.

Yoxsa bizimkilər il on iki ay Avropanın qüdrətli dövlətlərinin paytaxtlarında mitinqlər, nümayişlər keçirir, müxtəlif toplantılar təşkil edir, parlamentə tələbnamələr göndərirlər, bu normaldır, amma həmin dövləti təmsil edən diplomat gəlib hansısa məhkəmənin gedişatını izləyəndə, yaxud müxalif siyasi qüvvələrlə görüş keçirəndə, bu, "daxili işlərə qarışmaq" olur.

Varmı belə diplomatik əməkdaşlıq?

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016



# Çinli turistləri Azərbaycana kim buraxmadı?

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Novruz tətilində təkcə Ərdəbil vilayətinə Arazın bu tayından - Şimali Azərbaycandan 7 min nəfər gedibmiş. Ərdəbil vilayətinin turizm üzrə rəsmisi Qadır Tağızadə deyib ki, keçən illə müqayisə bölgəyə gələn azərbaycanlıların sayı 17 faiz artıb. Hələ bu, təkcə Ərdəbilin statistikasıdır.**

Novruz günlərində Azərbaycanda da kifayət qədər iranlı turistlər var idi, onların içərisində azərbaycanlılar üstünlük təşkil edirdi. Xoş gəlirlər, səfa gətirirlər. Xüsusilə də azərbaycanlı turistlərin çoxluğu bizi sevindirir. Ancaq əgər Azərbaycana gələn turist dollar almaq üçün küçələri dolaşırsa, deməli, çox işlərimiz yerində deyil.

Biz Azərbaycana gələn qonağı əl üstə gəzdirməliyik, onun rahatlığını təmin etməliyik ki, bir daha bura dönsün, yaxud qayıdandan sonra Azərbaycan haqqında elə təsəvvür formalaşdırsın ki, onun təbliğatı daha bir neçə nəfərin bura səfərinə səbəb olsun. Yoxsa Azərbaycana gəlib addımbaşı problemlərlə üzləşən, bahalığı görəndən sonra başını götürüb burdan qaçan turist bir də niyə gəlsin, dəlidir?

Azərbaycan turizmin inkişafı üçün kompleks işlərə başlanılmalıdır, ststistika üçün yox, gerçək addımlar atılmalıdır. Bu gün turizm bazarında yer almaq uğrunda işlər başlamalıdır. Turizm sektorunun nə qədər gəlirli və faydalı olduğunu demək artıqdır. Biz Azərbaycanı təbliğ etmək üçün "Atletiko Madrid"ə milyonlarla xərclədik, ancaq sonda məlum oldu ki, deyəsən, bədxərclik etmişik. Ölkəni tanıtmaq üçün unikal imkan varsa, o da turistlərin cəlb olunmasıdır. Sən ölkəni təbliğ üçün pul xərcləmirsən, turist gəlir, həm pulunu xərcləyir, həm də Azərbaycanı təbliğ edir.

Dünya Səyahət və Turizm Şurasının (WTTC) 184 ölkədə apardığı araşdırmanın nəticələri heyrətamizdir. Təsəvvür edin, Çindən olan turistlərin xaricdəki xərcləri 2015-də əvvəlki illə müqayisədə 53% artıb və 215 milyard dollara çatıb. Təkcə çinli turistlərin xaricdə xərclədiyi pulun həcmi bizim büdcəmizdən 15-20 dəfə çoxdur! Bəli, Çinlə nə əhali, nə də ərazimiz baxımından müqayisə oluna bilmərik. Ancaq hər halda biz çinli turistlərin üzünü ölkəmizə çevirə bilərik axı. Çinli turistlərin ən çox üstünlük verdiyi 10 ölkə bunlardır: Yaponiya, Tailand, Cənubi Koreya, ABŞ, Sinqapur, Avstraliya, Rusiya, İndoneziya, Yeni Zelandiya və Birləşmiş Krallıq. Azərbaycan da ola bilərdi...

Gəlin, oturub düşünək, axı, niyə bizim ölkəyə ancaq ucuz işçi qüvvəsi sayılan, yaxud "bes manat" deyə-deyə xırda-xuruş şələləyib küçələri dolaşan alverçilər gəlib çıxır? Niyə biz çinli turistləri ölkəmizə gətirib çıxara bilmirik? Təbii ki, gələnlər içərisində onlar da var, amma hər halda statistikada yoxuqsa, deməli, çinli turistlərin sayı barmaq hesabıdır.

Azərbaycanın gözəl, çoxlarını heyrətləndirə biləcək təbiəti, tarixi abidələri az deyil. Tətil günlərində Bakıdan Zaqatalaya qədər apardığım müşahidələrim də bunu təsdiqləyir. İsmayıllı öz meşələri, Qəbələ zirvəli, qarlı dağları, Şəki göz oxşayan qədim tikililəri, Qax möhtəşəm şəlaləsi, İlusu sultanlığının yadigari olan Sumuqala abidəsi, Zaqatala tarixi qala divarları, Alban kilsəsi ilə minlərlə turisti heyrətləndirə, özünə cəlb edə bilər...

Di gəl ki, Qax və Zaqatalada nadir halda əcnəbi turistlərin sorağını ala bildik. Hətta beş addımlıqdakı Gürcüstandan da gələnlərin sayı çox azdır. Əgər bizim milli bayramımıza - Novruza şahidlik etməyə dünyanın dörd tərəfindən insanlar axışmırsa, günahı başqasında axtarmayaq. Bəlkə əcnəbi turistləri Azərbaycana gəlməyə erməni lobbisi qoymur?

Novruz günlərində Qubaya 4 min, Qusara isə 6 minə yaxın turist gəlib, təbii ki, əksəriyyəti yerli. Axı, biz qış turizmi üçün bir ətək pul xərclədik, hanı qarşılığı? Türkiyədə bizi keçmiş valinin mülkünə apardılar, muzeyə çevirilmiş bu evə hər ay azı 1500 nəfər ziyarət edir. Bir evi!

Şübhəsiz ki, bahalıqdır turistlərin yolunu kəsən. Novruz tətili üçün 3 gecə 4 günlük İstanbul turu hər şey daxil olmaqla - Tiflisdən getməklə - 211 avro idi. Gəncədən isə uçuşla turpaket 209 avroya təklif olunurdu. Cəmi 640 manata Misirin Şarm-əl Şeyx kurortundakı 5 ulduzlu hoteldə 7 gecə 8 gün istirahət etmək mümkündür. Bu qiymətə aviabilet, transfer, sigorta, gündə 3 dəfə qidalanma , viza və s. aiddir. Ancaq bizim rayonlarımızda bir gecə qalmaq üçün 100 manatından keçməlisən, təbii ki, ac-susuz...

# Rza Zərrabın ABŞ-da həbsi: sifariş, yoxsa könüllü təslim, siyasi, yoxsa kriminal olay?

## Ekspert hadisənin mümkün pərdəarxası və sonuclarından danışdı: "Amerikanın bundan siyasi məqsədlər üçün istifadə edəcəyini düşünmürəm..."

**İran əsilli iş adamı Rza Zərrab 19 mart tarixində ABŞ-ın Florida ştatının Mayami şəhərində Federal Təhqiqatlar Bürosunun (FTB) əməkdaşları tərəfindən həbs olunub. ABŞ ədliyyə nazirinin milli təhlükəsizlik məsələləri üzrə müavini Con Karlin və FTB direktorunun müavini Dieqo Rodrigezin verdiyi birgə bəyanata əsasən, 33 yaşlı Zərrab iki İran vətəndaşı - Kamelia Cəmşidi və Hüseyn Nəcəfzadə ilə birlikdə İran hökumətinin xeyrinə saxtakarlıq həyata keçirməkdə, yüz milyonlarla dolları saxta sənədlərlə banklar üzərindən transfer etməkdə şübhəli bilinir. Hakim Riçard Berman hər üç şübhəli üçün üst-üstə 75 il həbs cəzası tələb edib.**


Rza Zərrab

### Rza Zərrab kimdir?

Mənbələrə görə, 12 sentyabr 1983-cü il İranda doğulan Rza Zərrab 20 yaşından sonra Türkiyədə yaşayıb. O, 1997-ci ildə qurulan "Nafees Exchange" və "Al Salam Center Exchange" firmalarıyla birlikdə Dubayda pul bazarlarında fəaliyyət göstərərək iş həyatına başlayıb. Lakin onun harada doğulması ilə bağlı məlumatlar bir qədər ziddiyyətlidir. Belə ki, Türkiyə mətbuatında Rza Zərrabın İranda deyil, Azərbaycanda doğulduğu da iddia edilir. Türkiyə mətbuatının yazdığına görə, iş adamı 1984-cü ildə Bakıda anadan olub. O, Azərbaycanın ən varlı iş adamlarından biri olmaqla bərabər, tayfa başçısı kimi də təqdim edilir.

Zərrab Türkiyəyə gəldikdən sonra azərbaycanlı sevgilisi Günel Zeynalova üçün mahnı sözləri də yazıb. Zərrabın bu fəaliyyəti onu musiqi aləmində də tanıdıb. Türkiyədəki biznes fəaliyyətlərinə isə 2008-ci ildə qurduğu "Royal Dənizçilik" firması ilə başlayıb. Bunun ardınca isə dəmir polad və tikinti sektorunda investisiyalar edib. 2010-cu ildə qardaşı Məhəmməd Zərrab ilə "Royal Holding"i qurub. Həmin ildə Zərrab müğənni Ebru Gündeşlə ailə həyatı qurub. Bu evlilikdən Alara adlı qızı dünyaya gəlib.

Zərrab həyat yoldaşına aldığı qiymətli hədiyyələrə görə tez-tez medianın gündəminə gəlirdi. Onun ictimaiyyətdə bu qədər məşhur sima olmasını, məhz bu faktorla da əlaqələndirənlər var. Zərrabların qurduğu "Royal Holding" bir müddət sonra 8 firması ilə 10 fərqli sektorda fəaliyyət göstərməyə başlayıb. Hazırda "Royal Hoding"in tərkibində "Foulad Kaveh", "Royal Denizçilik", "Safir Altın LTD", "Merkez İnşaat", "Al Nafees Exchange", "ARE Havaçılık", "Royal Atçılıq", "Royal Mobilya" kimi şirkətlər fəaliyyət göstərirlər. Holdinqin Rusiyada, Dubayda, eləcə də İranda investisiyaları var. 2012-ci ildə "Royal Holding"in ixracatı 2 milyard 500 milyon dollar təşkil edib.

Onu da qeyd edək ki, Zərrabın adı daha öncə də korrupsiya qalmaqalında hallanıb. O, 2013-cü ildə Türkiyədə qalmaqallı korrupsiya işi ilə bağlı həbs edilmişdi. O vaxt Zərrab hökumət üzvlərinə rüşvət vermәkdə təqsirləndirilirdi. Lakin sonra ona qarşı irəli sürülən ittiham ləğv olunmuş və işə xitam verilmişdi. Bəhs etdiyimiz ərəfədə Türkiyədə hökumət üzvlərinə qarşı korrupsiya ittihamı ilə təhqiqat da başlamışdı. Təhqiqat nəticəsində 3 nazir istefa vermişdi. Həmin zaman Türkiyənin baş naziri olan hazırkı prezident Rəcəb Tayyib Ərdoğan isə bu hadisələri bir çevriliş kimi qiymətləndirmişdi.

İndi isə Zərrabın vəkilləri ona qarşı irəli sürülən ittihamların 2013-cü ildəki korrupsiya təhqiqatı ilə əlaqəli olmadığını bildiriblər. Aprel ayında hakim qarşısına çıxacaq Zərrab ona qarşı irəli sürülən fırıldaqçılıq və "çirkli pullar yuyulması" ittihamlarına cavab verməli olacaq.

Yuxarıda qeyd etdiyimiz kimi, bir çox mənbələrdə o, azərbaycanlı kimi də qeyd edilir. Eyni zamanda məlumatlara görə, Rza Zərrab həm də Azərbaycan vətəndaşıdır. Bəs Rza Zərrabın həbsinin uzantıları Azərbaycana qədər gələ bilərmi?

Öncəliklə qeyd edək ki, Britaniyanın tanınmış "Independent" qəzeti Rza Zərrabın ABŞ-da həbs edilməsinin prezident Rəcəb Tayyib Ərdoğanı çətin vəziyyətə salacağını yazıb. Zərrabın həbsi ilə bağlı məlumat "Həbs qərarı. Ərdoğanın yaxın ətrafına qədər uzanan və qurduğu partiyaya qarşı etimad problemi yaradan korrupsiya ittihamları yenidən gündəmə gələ bilər" şərhi ilə dərc olunub.

Məsələ ilə bağlı musavat.com-a politoloq Ərəstun Oruclu bildirdi ki, Rza Zərrabın həbsinin sifariş olduğunu düşünmür: "Azərbaycanda, Türkiyədə belə yanaşırlar ki, ABŞ-da və ya Avropada nə baş verirsə, arxasında siyasət dayanır. Məsələ kifayət qədər sadədir. Federal Təhqiqatlar Bürosu müstəqil bir qurumdur. Bu quruma heç bir siyasi hakimiyyətin təsir imkanları yoxdur. Rza Zərrab da yaxşı bilirdi ki, ona qarşı hansı ittihamlar olub. 2013-cü ildə də Zərrab saxlanılmışdı. Həmin dövrdə Ərdoğan prosesə müdaxilə etdi, polis rəsmiləri işdən azad edildi, Rza Zərrab da azadlığa çıxdı. Hesab edirəm ki, indi Zərrab bilərəkdən Amerikaya gedib. Ola bilər ki, onu daha böyük təhlükələr gözləyirdi. Çünki o, əslində heç də göründüyü qədər möhtəşəm bir fiqur deyil. Düşünürəm ki, bu yaşda, belə bir təcrübədə olan insan yalnız üzdə olan dekorativ fiqurdur. Kimlərinsə işlərini, sifarişlərini yerinə yetirir. İranın da sanksiyalar dövründə əsas biznes əlaqələrini quran, "İnqilab Keşikçiləri"nə yaxın şirkətlər və banklar olub. Bunlar Azərbaycanda da olublar. Hətta deyilənə görə, Rza Zərrabın iki vətəndaşlığı var- İran və Azərbaycan. Ancaq, deyək ki, FTB tərəfindən sabah hansısa ittihamlar veriləcəksə, yaxud Azərbaycan və ya Türkiyə ilə bağlı hansısa təhqiqatlara başlanılacaqsa, bunun arxasında siyasət axtarmaq lazım deyil".

Politoloqa görə, Zərrab Amerikanın onun üçün təhlükəsiz ölkə olmadığını bilib: "Ancaq oranı seçibsə, demək, nəyə getdiyini də bilib. Bilib ki, ABŞ-da onu uzaq başı həbs edəcəklər. Ancaq başqa ölkələrdə isə onun pis işlərin, maliyyə fırıldaqlarının iştirakçısı, şahidi kimi arzuolunmaz şahidə çevrilməsi təhlükəsi də ola bilərdi. Eyni zamanda Amerika hüquq sistemində şahid ifadəsi vermək, məhkəmə, istintaqla əməkdaşlıq etmək məsələsi var ki, bu, çox yüngülləşdirici hal sayılır. Hətta ola bilər ki, sabah Zərrab, ümumiyyətlə, ittiham edilən şəxsdən şahidə keçsin. Bu, tamamilə mümkündür. Ancaq bu halın Amerika hökuməti tərəfindən siyasi məqsədlər üçün istifadə ediləcəyini düşünmürəm. Hesab edirəm ki, bu adi bir kriminal işidir".

❑ Əli RAİS

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016



# Ermənistan - Avropanın ən hərbiləşdirilmiş işğalçı ölkəsi

## Təcavüzkarın sürətlə silahlanması həmsədr dövlətlərin ona göz yumması və təəssübkeşliyi sayəsində mümkün olub; "Krımı Ukraynaya qaytarın" deyən ABŞ nədən Dağlıq Qarabağla bağlı eyni tələbi irəli sürmür?

**Almaniyadakı Bonn Qlobal Hərbiləşmə İndeksi üzrə Beynəlxalq Konversiya Mərkəzi bayram günlərində maraqlı bir hesabat yayıb. Hesabatda işğalçı Ermənistan Avropanın ən çox hərbiləşmiş ölkəsi elan edilib. Sənəddə bildirildiyinə görə, nəticələr hər min nəfər əhaliyə düşən hərbçilərin sayı, hərbi xərclərin və ÜDM-in nisbəti, hərbi və səhiyyə xərclərinin nisbəti, həmçinin, qoşunların sayı və ağır hərbi texnikanın göstəriciləri əsasında hazırlanır.**




Hesabata görə, ikinci yerdə Rusiya, üçüncü yerdə yunan Kipri, dördüncü yerdə isə Azərbaycandır (Azərbaycan 2015-ci ilin axırına 8-ci yerdə olub). Ən çox hərbiləşmiş dünya ölkələri arasında isə Ermənistan üçüncü yerdədir.

Əlbəttə ki, "ən çox hərbiləşmə" ifadəsi hələ o demək deyil ki, Ermənistan hərbi cəhətdən Azərbaycandan, Rusiyadan, başqa Avropa ölkələrindən güclüdür. Söhbət, sadəcə, yuxarıda sadalanan göstəricilərə (əhali sayı və s.) nəzərən hasil olan nəticədən gedir. Cırtdan ölkə olan işğalçının ərazisində normadan artıq silah-sursat yerləşdirilməsi isə, təbii ki, müstəsna olaraq Rusiyanın - ATƏT-in Minsk Qrupunun üç həmsədrindən birinin sayəsində mümkün olub. Amma təkcə onun hesabınamı?

Əlbəttə yox. Həm də bu silahlanmaya daima göz yuman, bir dəfə də olsun Rusiya və Ermənistana irad bildirməyən, göz ağartmayan digər iki vasitəçi dövlət - ABŞ və Fransanın sayəsində təcavüzkar sürətlə silahlandırılır. Son bir neçə ayda isə Türkiyədən təhlükə bəhanəsi ilə proses Rusiya tərəfindən daha intensiv xarakter alıb.

***

Sözsüz ki, ən əvvəl bu səbəblərdən Dağlıq Qarabağa dair on illərdir aparılan danışıqlar nəticə vermir. Çünki erməni tərəfi nəinki özünü cəzasızlıq mühitində hiss edir, eyni zamanda o, üstəlik, vasitəçilərin rəğbətini duyur. Təbii ki, Azərbaycan da situasiyanın yaxşı fərqindədir. Bu mənada prezident İlham Əliyevin Minsk Qrupu həmsədrləri haqda söylədiyi son sərt fikirlərdə təəccüblü heç nə yoxdur və bütünlüklə acı gerçəyi əks etdirir.

Novruz bayramı münasibətilə keçirilən ümumxalq şənliyində ölkə başçısı bildirmişdi ki, həmsədrlər öz fəaliyyəti ilə Qarabağ münaqişənin dondurulmasına xidmət edirlər: "Onlar öz səlahiyyətlərini aşaraq beynəlxalq təşkilatların işinə müdaxilə edirlər. Ermənistana təzyiq etmək əvəzinə, ermənilərə himayədarlıq edir, onları qoruyurlar. Münaqişəni həll etmək əvəzinə qəribə təkliflər verirlər ki, təmas xəttində təhlükəsizlik tədbirləri möhkəmləndirilsin".

"Bu, nə deməkdir? O deməkdir ki, işğalçı dövlət özünü daha rahat hiss etsin və işğalı, status-kvonu daha da möhkəmləndirsin. Biz burada, əlbəttə ki, Azərbaycana qarşı həm qeyri-dost, qeyri-səmimi münasibət, həm də riyakarlıq görürük və bunu açıq deyirik, onların üzünə deyirik. Mən burada artıq ictimaiyyətə də bunu deyirəm, bir tərəfdən onların dövlət başçıları dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Digər tərəfdən, Minsk Qrupunun həmsədrlərinin pozucu fəaliyyəti status-kvonun möhkəmlənməsinə xidmət edir. Bax, budur münaqişənin uzadılmasının əsas səbəbi. Bu, ədalətsizlikdir. Bu, ikili standartlar siyasətidir. Biz bu siyasəti rədd edirik və bundan sonra bütün kürsülərdə öz sözümüzü deyəcəyik", - deyə prezident qeyd eləmişdi.

***

Rusiyanın bu haqlı iradlara cavab reaksiyası artıq bəllidir - əgər ona reaksiya demək mümkünsə, çünki tənqiddən nəticə çıxarılmayıb. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova məsələ ilə bağlı iddia edib ki, guya İlham Əliyevin tənqidlərinin Kremlə aidiyyəti yoxdur, çünki "Azərbaycan prezidenti Rusiyanı nəzərdə tutmayıb, Rusiya səmimi qəlbdən konfliktin hillini istəyir". Halbuki, hamı bilir ki, münaqişənin həllinə ən böyük əngəl elə Rusiyanın özüdür.



İkinci yandan, xanım Zaxarova bilməmiş deyil ki, az öncə Ermənistana 200 milyon (əslində 1 milyard) dollar dəyərində silah-sursat verilməsi ilə bağlı rəsmi Moskvaya etiraz notası göndərən də məhz Bakı olmuşdu. Rusiyadan narazılıq daha özünü necə göstərməlidir ki?

Məsələyə prezident Vladimir Putinin mətbuat katibi Dmitri Peskov da reaksiya verib. "Dağlıq Qarabağ münaqişəsi hələ ki, həll olunmamış qalıb. Rusiya isə bu prosesin eyni vəziyyətdə qalmaması üçün ciddi səylər göstərir" deyən Peskov ardınca Bakının iradlarına işarə vuraraq bildirib ki, bir ölkənin digərinə qarşı qeyd-şərtsiz bəyanatlar səsləndirməsi heç bir inkişafa yol aça bilməz: "Hələlik sevinmək üçün hansısa irəliləyiş yoxdur. Amma bu məsələdə yeganə çıxış yolu vasitəçilərin həm İrəvan, həm də Bakı üçün əlverişli şərait yaratmasıdır".

***

Lakin Rusiya Qarabağ ixtilafının həllində bəlli səbəblərdən maraqlı deyil. Hərçənd, bəzi analitiklərə görə, Suriyadan çıxan Rusiya indi başqa istiqamətlərə, o cümlədən Dağlıq Qarabağ münaqişəsi zonasına diqqətini artıra bilər. İstisna deyil. Lakin diqqəti artırılması heç də konfliktin həllinə Moskvanın töhfə verəcəyi anlamına gəlmir. Bəlkə də tam əksinə olacaq. Çünki Rusiya "bulanıq suda" - hərbi qarşıdurmalar şəraitində "balıq tutmağı" xoşlayan dövlətdir.

Mövcud şərtlər və reallıqlar fonunda digər vasitəçi dövlətlərin Qarabağ səyləri də səmimi təəssüratı bağışlamır. Məsələn, amerikalı həmsədri Ceyms Uorlik "Amerikanın səsi" radiostansiyasına müsahibəsində bildirib ki, "Həmsədrlərin ən əsas məqsədi Dağlıq Qarabağ münaqişəsinin tam həllidir". Onun sözlərinə görə, atəşkəsi pozmaq cəhdləri narahatlıq doğurur, ən böyük narahatlıq isə dinc əhali arasında qurbanların olmasıdır.

Yəni faktiki şəkildə Uorliki münaqişənin uzunmüddətli həllindən daha çox, atəşkəsin pozulması halları narahat edir. Hərgah, adi məntiq diktə edir ki, konfliktin həlli ilə atəşkəs rejiminə təhlükələr həmişəlik aradan qalxacaq, ölüm-itim də olmayacaq - nə mülki əhali, nə də hərbçilər arasında.

***

Qarabağ məsələsinə ABŞ-ın da ikili standart siyasət yürütməsini aşağıdakı ilginc faktdan da asanca görmək olar. Belə ki, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Samanta Pauer Krımın Rusiya tərəfindən ilhaqının ikinci ildönümündə bildirib ki, Krımda Rusiyanın keçirdiyi "referendum"un saxta nəticələrini ABŞ heç vaxt tanımayacaq.

Pauer ABŞ-ın iki il əvvəl BMT-də 100-dən ölkəni səfərbər etdiyini xatırladıb: "Onlar səsvermə ilə Rusiyaya çox aydın şəkildə dedilər ki, saxta referendumu və işğal faktını BMT heç vaxt tanımayacaq. Biz bunu olduğu kimi - beynəlxalq hüququn pozulması və BMT nizamnaməsinə məhəl qoymama kimi qəbul edəcəyik. Siz özünüzə tarixi danışa bilərsiniz ki, Krım sizindir, amma o heç vaxt sizin olmayacaq". Amerika rəsmisi əlavə edib ki, Ukrayna suveren dövlətdir və onun ərazi bütövlüyü müqəddəsdir.

Sual da budur ki, bəs Azərbaycan suveren dövlət deyil, onun ərazi bütövlüyü müqəddəs deyil, Ermənistan Rusiya kimi BMT nizamnaməsini və beynəlxalq hüququ pozmayıb ki?!!

Bu yerdə onu da qeyd edək ki, martın 16-da da ABŞ Dövlət Departamenti Krımın Rusiya tərəfindən ilhaq olunmasının ikinci ildönümü ərəfəsində verdiyi bəyanatında Rusiyanı Krımı Ukraynaya qaytarmağa çağırıb. Sitat: "Biz XXI əsrdə sərhədlərin güc yolu ilə yenidən çəkilməsini qəbul etməyəcəyik. İşğal davam etdiyi müddətdə sanksiyalar qüvvədə qalacaq. Biz Rusiyanı işğalı dayandırmağa və Krımı Ukraynaya qaytarmağa çağırırıq".

Çox gözəl. O zaman nədən Azərbaycan ərazisinin 20%-ni 25 ildir işğal altında saxlayan Ermənistana qarşı analoji sərt tələblər irəli sürülmür, sanksiyalar tətbiq olunmur?

Sual ritorikdir, təbii ki: ikili standart məsələsi, işğalçıların "yaxşı" və "pis"ə bölünməsi, qısası, pozuculuq. Azərbaycan prezidenti də zatən, bunu deyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

# Doqquz günlük bayram tətili - iqtisadiyyata dəyən milyonlarla manat ziyan...

**Novruz bayramı ilə əlaqədar olaraq ölkədə 9 günlük istirahət elan edilməsinin ölkə iqtisadiyyatına təsiri müzakirə olunmaqdadır. Əksər ekspertlər bu fikirdədirlər ki, bu cür uzunmüddətli bayram tətillərinin iqtisadiyyata mənfi təsirləri daha çoxdur. Ekspert Rəşad Həsənov məsələ ilə bağlı musavat.com-a bildirib ki, əslində 9 günlük bayram tətili ölkə üçün ciddi nəticələrə gətirib çıxaracaq: "Xüsusilə maliyyə sektorunda mənfi nəticələr yaradacaq. Çünki heç bir ölkədə bank sektoru 9 gün müddətinə fasilə etmir.**

Ekspertlər bildirirlər ki, bayramda işləyənlərə əlavə ödənişlərin verilməsi, ölkə iqtisadiyyatının bir sıra sahələrinin 9 gün işləməməsi milyonlarla manat ziyan deməkdir; iqtisadi böhran itkiləri bir az da çoxaldır...

Xüsusilə də Azərbaycanda manatın məzənnəsi ilə bağlı ciddi təlatüm olduğu bir dövrdə belə olması normal deyil. Bu baxımdan yanaşdıqda, əslində 9 gün rəsmi qurumların işləməməsi "qara bazar"ın formalaşmasına səbəb olur. Hazırda iqtisadi sektorlar üzrə dövlətin daha aktiv fəaliyyətinin gərəkdiyi bir dövrdə 9 gün rəsmi qurumların bayram tətilinə getməsi müəyyən neqativ hallara gətirib çıxarır. Amma paralel olaraq onu da nəzərə almaq lazımdır ki, bayramla əlaqədar olaraq ölkəyə xüsusilə qonşu ölkələrdən, İran və Türkiyədən turist axını müşahidə olundu. Onlar da ölkəyə müəyyən qədər valyuta gətirirlər. Eyni zamanda, bu, turizm sektoruna və digər yan sektorlara müsbət təsir göstərir. Bu baxımdan götürsək, 9 günlük tətilin ölkə iqtisadiyyatı üçün həm müsbət, həm də mənfi tərəfləri olub".

Ekspert Natiq Cəfərli isə musavat.com-a deyib ki, əslində böhranlı vəziyyət yaşanan bir ölkədə bayram günlərinin bu qədər çox olması nonsensdir: "Doqquz gün iş olmaması iqtisadiyyatı çox ağır durumda olan ölkəyə ciddi təsir göstərməlidir. Amma Azərbaycanda iqtisadi model çox primitiv olduğundan, güc neft sektorunun üzərinə düşür. Bu sektorda da bayram günləri iş dayanmır. Fasiləsiz, 24 satlıq iş rejimidir. Azərbaycan ixracatının 94 faizini neft təşkil etdiyindən, hökumət də çox arxayındır. Arxayındır ki, neft sənayesi işləyir. Azərbaycana əsas gəliri neft sənayesi gətirir. Digər sahələrin işləməməsi görünür hökumətə o qədər də narahatçılıq yaratmır. Ona görə də bu şəraitin olması da bir nonsensdir. Böhranlı vəziyyətdə, əksinə, iqtisadiyyatın bütün sahələrini çalışdırmalıyıq. Bunun təşviqinə yönəlik addımlar atmaqdansa, bu qədər uzun tətillərin olması özü iqtisadiyyatının vəziyyətini göstərir. İqtisadiyyatın bayram günlərində itirdiyini isə hesablamaq mümkün deyil. Normal statistik rəqəmlər tapmaq çox çətindir".



Nazirlər Kabinetinin sabiq şöbə müdiri Oqtay Haqverdiyev isə azadliq.org-a açıqlamasında qeyd edib ki, böhran vaxtı 9 günlük istirahət ölkə iqtisadiyyatına milyonlarla manat ziyan deməkdir. Onun sözlərinə görə, dövlətin strateji obyektləri - elektrik stansiyaları, neft hasilatı müəssisələri və bəzi xidmət sahələri bayram günləri də elə adi günlərdə olduğu kimi fəaliyyət göstərirlər. Əmək qanunvericiliyinə görə isə, istirahət günləri işləyənlərin hamısına həmin günlər üçün ikiqat əməkhaqqı verilməlidir. Oqtay Haqverdiyevə görə, həm bu kimi əlavə ödənişlər, həm də ölkə iqtisadiyyatının bir sıra sahələrinin 9 gün işləməməsi milyonlarla manat ziyan deməkdir. O qeyd edib ki, bunun dünyada davam edən iqtisadi böhran vaxtına düşməsi itkiləri bir az da çoxaldır.

Əməkçilərin Hüquqlarının Müdafiəsi Liqasının rəhbəri Sahib Məmmədov isə hesab edir ki, Azərbaycan hələ 9 günlük istirahətlərə hazır deyil. Onun sözlərinə görə, belə uzun müddətli istirahətlərin həmişə bəzi fəsadları olur. O ki qaldı istirahət günlərində büdcə və qeyri-büdcə təşkilatlarında çalışanların əmək haqlarının olduğu kimi saxlanılmasına, Sahib Məmmədov deyir ki, bu, daha çox əməyin ödəniş formasından asılıdır: "Əgər əməyin forması vaxta muzdursa, onda maaşlar olduğu kimi qalır. Əgər işə muzdursa, onda əməkhaqqı hasilat normasına görə ödənilir. Bu halda uzunmüddətli istirahət günlərinə görə işçi ziyan çəkir".

İqtisadi Təşəbbüslərə yardım Mərkəzinin sədr müavini Rövşən Ağayev də belə uzun müddətli istirahət günlərini ölkə iqtisadiyyatı və büdcə üçün itki hesab edir. Onun sözlərinə görə, bəlkə istirahət günlərində ticarət sahəsində hansısa gəlir əldə edilə bilər, amma ailə və fərdi təsərrüfatlar ciddi itkilərlə üzləşirlər.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarı ilə Novruz bayramı ilə əlaqədar olaraq ölkədə 9 günlük istirahət elan edilmişdi.

❑ Röya RƏFİYEVA

# Bayram günlərində qalxan qiymətlər enməyib

## "Qiymətlərin devalvasiyadan öncəki həddə düşməsi gözlənilmir"

**Novruz bayramı geridə qalsa da, bazarlardakı bayram bahalaşması səngiməyib. Bayram ərəfəsində pik həddə bahalaşan məhsullar indi də eyni şəkildə satılmaqda davam edir. "Yeni Müsavat"ın müxbiri paytaxtın "Səkkizinci kilometr" bazarına baş çəkərək ərzaq məhsullarının qiymətləri ilə maraqlanıb.**

Əvvəlcə onu qeyd edək ki, bazarda alıcı əlindən tərpənmək olmur. Bayram bazarlığını tükətmiş əhali bazarlara üz tutub. Tələbatın bu cür artması da qiymətlərin eyni həddə qalmasına səbəb olub.

İlk olaraq quru meyvələrin qiymətinə nəzər salsaq, qoz və fındıq yenə də 5-6 manatadır, yalnız bir yerdə 4 manata qoz satılırdı. Ləpələrin qiyməti isə 12-18 manat arasında dəyişir. Badam ləpəsi də 24 manatla liderliyini qoruyur. Kişmiş 8-12 manat, ərik qurusu 10 manat, alma və gavalı quruları isə 7-8 manatadır. "Şahənşah", "Tamaşa", "Sultan" düyüləri isə bazarda 2.5 manata təklif olunur.

Meyvələrin, xüsusən də, alma, naringi və portağalın qiymətində isə bir qədər ucuzlaşma müşahidə olunur. Belə ki, bayramda 2 manata satılan almalar indi 1.5 manata, 3 manata satılan portağal 2 manata, naringi də 1.8-2 manata satılır. Banan bahalaşıb, 2.7-3 manata təklif olunur. Yerli naringinin isə topdansatış qiyməti 2.9 manat, satış qiyməti 3.5 manat olub.

Satıcılar deyir ki, topdansatışda qiymətlər baha qaldığı üçün onlar da baha satmağa məcburdurlar. İrandan gələn məhsulların da gömrükdə problemlə üzləşməsi ucuz məhsulların bazara girişini əngəllədiyindən qiymət artımı davam edir. Satıcının sözlərinə görə, yerli məhsullar da baha gətirilir. Ötən ilin bu vaxtı 80 qəpiyə satılan alma indi 1.5 manatadır. Novruz süfrəsinə qoyulan iydə, innab bayram ərəfəsində 6 manata qalxsa da indi 4 manata düşüb. Narın kiloqramı 3-4 manat arasında dəyişir. Göyçay narı 4 manata satılır.

Tərəvəzlərdən kartof nisbətən ucuzlaşıb. Belə ki, bazarda ən baha kartof 70 qəpikdir, Tovuz kartofunu isə kiloqramı 50 qəpikdən almaq olar. Soğanın qiyməti 70-80 qəpik arasındadır. Kələm 50 qəpik, kök 50 qəpik, turp 0.5-1 manat, göbələk 2.7 manat, badımcan 3 manat, xiyar 2-2.5 manat, pomidor 2-3 manatdır.

Pomidor və xiyar bayram günləri ilə müqayisədə 50 qəpik ucuzlaşıb.

Paxlalılardan mərci 3.4 manata, lobya 4 manata, noxud 3.8 manata , qarabaşaq 2 manatadır.

Göyərtilərin 8 -10 dəstəsi 1 manata satılır. Limonun isə 3 ədədi 1 manatadır. Kənd yumurtasına da tələbat artıb, bir ədədi 20 qəpikdir.

Marketlərdə də qiymət endirimi olmayıb. Əksinə yumurta bahalaşıb. Belə ki, bir müddət 8-9 qəpiyə qədər ucuzlaşan, daha sonra 12 qəpiyə satılan yumurta indi orta hesabla 15 qəpiyədir. Həmçinin, "Coca-Cola" nın 1 litri 85 qəpiyə təklif olunur. Ağartı məhsullarının da qiymətləri eynidir, firmadan asılı olaraq qiymətlərdə 10-20 qəpik fərqi nəzərə alsaq südlər 1.5 manat, şor 3.5, pendir 5-6 manat arasında dəyişir.

Yağların qiyməti də 10 manata çatmaq üzrədir. Zellandiya yağları 9.8 manata təklif olunur. Duru yağların isə ən ucuzunun 1 litri 3 manatdan başlayır.

100 qramlıq çay qutularının ən ucuzu 1.6 manatadır. Qəndin kiloqramı 1.5 manat, şəkər tozu isə 95 qəpik-1 manatdır. Makaron məhsullarının da qiyməti 1 manatı ötüb. Bir paket makaron 1.08 qəpiyə qalxıb.

Bazarlardakı durum alıcıları da narazı salıb. Onlar bayramdan sonra bahalaşmanın ucuzlaşma ilə əvəz olunmasını arzu etsələr də bunu real görmürlər.

Solmaz Alxanov adlı alıcı deyir ki, Azərbaycanda qiymətlər məşhur bir şüar üzrə tənzimlənir: "Bir dəfə qalxan qiymətlər, bir daha enməz". Bunu əbəs yerə deməyiblər. Endirim bir tərəfə, hər gün qəpik-qəpik bahalaşma gedir. Bir də baxırsan ki, 3-4 məhsul alıb marketdən çıxanda 20-30 manat xərcin çıxır. Əvvəllər bu pulla bir həftəlin bazarlıq edirdik".

Satıcılardan əldə etdiyimiz məlumata görə, bir neçə günə marketlərdə "Azərsun" məhsulları 10-15 faiz bahalaşa bilər. Səbəb isə topdansatışda artıq qiymətlərin bahalaşmasıdır.

İqtisadçı ekspert Rəşad Həsənov isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bayram bitsə də, bəzi ərzaq bazarında bahalaşma davam edə bilər: "Novruz süfrəsində istifadə olunan məhsullara tələbat artdığı üçün bayram ərəfəsində bəzi məhsullar bahalaşdı. Əslində bu təbii bir prosesdir. Ölkədə bayram ərəfəsində məhsul bolluğunun yaradılması ilə bağlı atılan addımlar tam effekt vermir. Yarmarkalar təşkil olunsa da , müşahidə olunanlar ondan ibarətdir ki, kəndlilərin, fermerlərin bu yarmarkalara çıxış imkanlarında müəyyən məhdudiyyətlər var.









Bu qısamüddətli proses olduğu üçün kəndlilər özləri də bu yarmarkalarda iştirak etməkdə maraqlı olmurlar. Bu baxımdan bayram dövründə qiymətlər bahalaşır. İdxal olunan məhsullarda da analoji hal müşahidə olunur. Lakin bayramdan sonra ucuzlaşmanın gözlənilməsi təbiidir. Kənd təsərrüfatı məhsullarında bundan sonra müəyyən qədər ucuzlaşma müşahidə olunacaq. Bu proses oktyabr ayına qədər davam edəcək. Çünki, digər tərəfdən, əhalinin alıcılıq qabiliyyəti sürətlə azalır. Şirkətlər isə öz məhsullarının rəqabətə davamlılığını və dövriyyəsini qorumaq məqsədilə qiymətlərdə güzəştə getməli olacaqlar. Lakin bu ucuzlaşma kəskin olmayacaq. Yəni qiymətlərin devalvasiyadan öncəki həddə düşməsi gözlənilmir".

❑ Nərgiz LİFTİYEVA
Fotolar müəllifindir

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

**"Cavan qızlarsız, ora isə təhlükəlidir. Qarşınızı kəsərlər, pulunuzu oğurlayarlar. Üstəlik, riskdir. 9 saatlıq məsafədir burdan. Gedib çıxana qədər axşam olacaq. Qalarsınız meşənin ortasında... Mənim məsləhətim - getməyin!"**





# "Allahın adını daşıyan" şəhərdə nələr olur?

## Gündüzü tarix, gecəsi kriminal qoxuyan Afinanın bu günü barədə ikigünlük təəssüratın nəticəsi; əməkdaşımız Yunanıstanın paytaxtından yazır...

O danışanda bir an adama elə gəlir ki, hansısa bir qohumunla danışırsan. Canıyananlıqla məsləhət verir, yol göstərir, ucuz və sərfəli bir hərəkət qrafiki təklif edir. Taksi sürücüsü Açelous (sonradan öyrənirəm, adının mənası çay Allahı demək imiş-S.T) bizim Yunanıstanın paytaxtında, Afinada tanış olduğumuz ilk yunandır. Aeroportdan çıxan kimi təsadüfən qarşılaşdığımız ilk taksinin sürücüsü...

"Yeni Müsavat"ın reportyor qrupunun Yunanıstan səfərindəki əsas məqsədi qaçqın düşərgələrinə baş çəkmək idi. Artıq bu mövzudakı silsilə reportajlar müsavat.com saytında dərc edilib...

Açelous isə taksi sürücülərinin psixologiyasına yad şəkildə şəhərə nabələd, əcnəbi müştərilərini aldatmırdı. "Mən sizi apararam, narahat olmayın, ucuzdur..." tipli klassik təkliflər yox idi nitqində. Elə bizim yunan insanı barədə ilkin xoş təəssüratımızın yaranmasına da o, səbəb oldu. Növbəti günlərdə onu ölümünə korlayan həmvətənləri olsa da...

### Gündüz tarix, gecə kriminal qoxan paytaxt...

Bəli, bura Afinadır, Yunanıstanın paytaxtı. Qədim tarix dərsliyində hər abidəsinə, savaşına bələd olduğumuz Yunanıstan. Son illərdə iqtisadi krizisin mərkəzində olan, kasıb günlərini yaşayan böyük ölkə. Şəhəri gəzdikcə hər daşından, divarından bu kasıblığın izləri tökülür. İlk baxışda adama elə gəlir ki, kasıblamış bir postsovet ölkəsindəsən. Amma qədim muzeyləri, kitabxanaları, hər yeri tarix qoxan küçələri gəzəndə... təəssüratın dəyişir. Axşam saatlarında Afinada dolaşmaq isə istər-istəməz bir xof yaradır insanda. Hər tinbaşı suriyalı, əfqan, iraqlı... miqrantlar qrup halında gəzirlər, öz dillərində ucadan danışır, itələşir, əylənməyə çalışırlar. Bu günə qədər sonuncuların Avropadakı bəzi kriminal əməllərini yada salıb, istər-istəməz narahatçılıq da keçirirsən. Nə deyirsən de, şəhərin mənzərəsi, havası, estetikasına təsir edir.





### Daşı, torpağı... əsrlərin izini daşıyan şəhər...

Afina şəhəri Afina adlı "allahın" adından götürülüb. Mifologiyaya görə, bu şəhər öz adını iki "allahın" - Poseydon və Afinanın arasında gedən bir yarışın nəticəsində, sonuncunun qalib gəlməsi ilə alıb. Ümumilikdə isə Yunanıstan Bizans, Osmanlı imperiyalarının və klassik Yunan ənənələrinin izlərini daşıyan ölkədir və qərb sivilizasiyasının mərkəzi sayılır. Dünya mədəniyyətinin formalaşmasında Yunanıstanın dəyəri olduqca çoxdur. Dünyada ilk demokratik dövlət, ilk olimpiya oyunları, politologiya, dram və qərb ədəbiyyatı bu ölkənin mədəniyyətində formalaşıb... Siz onun indiki halına baxmayın, özü boyda nəhəng bir tarixi formalaşdırır. Paytaxt Afina tarix, incəsənət, memarlıq qoxan bir şəhərdir. Ona bələd olmaq üçün heç şübhəsiz ki, öncə "quşbaşı bir nəzər"ə əşhədü ehtiyac var. Bunun ən ideal yolu avtobus turlarıdır. Qulağında qulaqcıq, şəhəri avtobusun ikinci mərtəbəsindən, izahlı şəkildə dinləmənin zövqü bir başqadır çünki. 18 avro ödəyib, operatorumuz Aytənlə bir tur alırıq. Həftənin əvvəlidir, avtobus demək olar ki, boşdur. Turistlərin azlığından istifadə edib, içəridə bol-bol çəkiliş də edirik. Bilirsiz, turistlər avtobus turlarında video çəkilişlərdən, stan uplardan heç xoşlanmazlar. Avtobus şəhəri fırlandıqca onun hər guşəsini tanıyırıq.



Afina şəhərində əsas turistik yerlər sırasında antik dövr abidə və tikililəri gəlir. Afina turlarının ənənəvi başlanğıcı şəhər mərkəzində yerləşən və yunan dilindən tərcümədə "yuxarı şəhər" mənasını verən Akkoroldur. 90 metr hündürlüyündə olan və Yunan memarlığının ən bariz nümunəsi sayılan bu tikilinin məbədlərini şəhərin hər tərəfindən görmək mümkündür. Antik memarlığın şah əsəri e.ə V əsrdə tikilmiş "Parfenon" məbədi də elə Akropol təpəsində inşa edilib.

Afina "Nike" məbədi- yunan əsgərlərinin zəfərləri şərəfinə e.ə V əsrdə inşa olunmuş 6 sütunlu məbəddir. Bundan başqa Afinanın ən əhəmiyyətli muzeylərindən olan Milli Arxeoloji Muzeydə antik dövrdən başlayaraq Roma imperiyası dövrünə qədər ən qədim mədəniyyətlərin bir çox incəsənət nümunələri - rəsm əsərləri, heykəllər və s. saxlanılır. 1840- cı ildə tikilmiş Sintaqma meydanı əvvəllər Kral meydanı adlandırılmış, sonralar isə adı dəyişdirilmişdir. Turistlərlə dolu olan bu meydan Yunanıstanın siyasi- mədəni bütün tədbirlərinin keçirildiyi əsas meydandır.

### Afina bazarları... teatrı xatırladır...

Monastiraki bazarı, Atina Mərkəzi bazarı, ət bazarı, Varvakio bazarı... Şəhərin daha çox bazarlar olan bölgəsindəyik. Daha öncə bir neçə sənədli filmdə Afinanın ət bazarından görüntülər izləmişdim deyə, maraq güc gəlir. Gedirik bazara. Səhər saat 6-dan açılan bazar axşam 5-ə qədər açıqdır. İnsanlar ən təravətli, təzə əti almaq üçün səhər saatlarında bura gəlir. Satıcı hər yerdə satıcıdır: müştərini bağıraraq çağıran, bir saniyə ayaq saxlayanı ət almadan yola salmayan... Kameranı görüb əlindəki bıçaqla əti şou göstərircəsinə doğrayanları da siyahıya əlavə etsəz, tam bir teatral havadan söhbət gedir. Qiymətlər isə dəyişir: ən ucuz ətin kilosu 4 avrodur(bu, malın hansı hissəsi olmasından asılıdır), 20 avroya qədər dəyişir.

Məşhur Omonio meydanı. Şəhərin düz göbəyində yerləşib və ötən reportajda da qeyd etdiyimiz kimi, artıq miqrantların daimi oturduğu yerdir. Şəhərdə təxminən 50-ə yaxın teatr binası var. Plaka bölgəsində Cine Pari Teatrı və Zappeioda yer alan Aigli Kinoteatrı şəhərə baş çəkənlərə yay aylarına açıq hava kinoteatrı zövqü yaşadır. Yunan Beynəlxalq Operasına aid performansları isə Atina Konsert Salonunda görmək mümkündür.

### Yunan otelçisi... niyə dələduz çıxdı?

Etiraf edirəm, müasir Afina haqda təəssüratlarımı formalaşdıran həm də Türkiyənin məşhur serialı "Yabançı damat" olub. Yunanların musiqi, əyləncə, ailə həyatı və daha nələr məhz o serialda ən incə detalına qədər tamaşaçıya çatdırılırdı. Niko ilə Nazlının dillərə dastan sevgisi....nin fonunda yunan psixologiyası. Əyləncə demiş, Aytənlə yunanların taverna musiqisini canlı-canlı dinləmək qərarına gəlirik. Yunanlar çistaki rəqsini ifa etsin, biz baxaq, çəkək, zövq alaq... deyə düşünürük. Google-da axtarış aparırıq, bir çox restoranlar otelimizdən uzaqdır. Məcburən otelin recepsionundakı əməkdaşla maraqlanırıq. Deyir, canlı musiqi istəyirsizsə, sizə əla məkan məsləhət görəcəm, ora gedin. Şəhərin xəritəsində həmin yeri nişan verir. Məlum olur ki, oteldən 10 dəqiqəlik yol məsafəsidir. Afinanın Plaka bölgəsində yerləşən restoranı çətinliklə tapanda isə məlum olur ki, içəri girəcək ilk müştəri biz olacağıq. Restoran isə musiqinin "m"sindən də xəbərdar deyil. Otelçi şəhərdən ayrılan gün bizə taksi çağıranda isə məlum olur ki, faizlə işləyirmiş. Normalda aeroportdan otelə gediş haqqı 38 avro olduğu halda, onun çağırdığı taksi bizi oteldən aeroporta 44 avroya aparır - 6 avro otelin faizi. "Yunan otelçiləri dələduzdur" nəticəsinə gəlirik, fikrimiz qətiləşir.

### Restoran yunanların, menyu türklərin...

Ümumilikdə isə məlum olur ki, arzuladığımız taverna musiqiləri, çalğılı restoranlar həftə sonu fəaliyyət göstərir. Yunanlar özlərinə bunu ancaq həftə sonları icazə verirlər.

Piserius bölgəsindəki sıradan restoranlar isə gecə 2-3 radələrinə qədər açıqdır. Tələbəlik illərini İstanbulda keçirmiş Aytən Pireusu İstanbulun Beşiktaş bölgəsinə bənzədir. Deyir, restoranları, ümumi ab-havası, hətta masalarının quruluşuna qədər eynidir. Menyunu gətirirlər, xeyli gülürük. Bu da nə? Sanki İstanbulun hansısa restoranında əyləşmisən: "Yogourtloy kebab" (yoğurtlu kabab), "merci şorbası", "doulma" (dolma), paxlava... Adama bir yoğurtlu kabab və yunan salatı sifariş edirik. Qazlı içkini də əlavə etsək, ümumi hesab 28 avro çıxır. Şəhərin mərkəzində, populyar bir məkan üçün... o qədər də baha qiymət sayılmaz.

Ümumiyyətlə, öyrənirik ki, yunan mətbəxi Ağdəniz mətbəxinin bilinən ləzzətli və sağlıqlı yeməklərindən ibarətdir. Bir çox yemək və şirniyyat türk mətbəxi ilə eynidir. Belə ki, hər iki mətbəxdə adlar dəyişməz. Dəniz məhsulları, tərəvəz yeməkləri və salatlar başlıca yeməklər arasındadır. Mətbəx daha çox Aralıq dənizi yeməkləri, yüngül, az yağlı və ya zeytun yağ ilə hazırlanmış təamlardan, salat və məzələrdən, məşhur yunan "rakısı" "Ouzi"dən ibarətdir.

Afinanın ictimai nəqliyyatı da çox yaxşı çalışır. Metro, tramvay və avtobuslarla şəhərin hər tərəfi çox gözəl bir şəkildə nəqliyyat xətti ilə örtülüb. Üç metro və üç tramvay xətti ilə avtobuslardan təşkil olunub. Atina metrosu eyni zamanda bir antik muzeyi xatırladır.

Sonda... Bir şəhəri tanımaq üçün bir gün yarım kifayət etməz, təbii ki. Üstəlik, bu müddətin yarıdan çoxu qaçqın düşərgəsində, qaçqınlarla müsahibədə keçibsə. Amma şəhərin havası hər gələn turisti bir başqa cür "vurur". Biri dəbdəbəsi, digəri kasıblığı, başqası şirinliyi ilə. Afinada isə məni sanki ac adamın nəfəsi vurdu. Müflisləşmiş, əski günlərini şamla axtaran eks varlılar kimi idi yunanların paytaxtı... "Ötən günə gün çatmaz..." tipli nitqlərin söylündiyi məkan...

❑ **Sevinc TELMANQIZI**
**Fotolar Aytən ABBASLININDIR**

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

# Azərbaycan nefti və Səidlə Xədicənin toyu: Cenifer Lopesə 5, Elton Cona 7 milyon dollar...

## Milyarder Mixail Qutseriyev oğluna Moskvada dəbdəbəli toy edib

**Moskvada, azərbaycanlı oliqarx Telman İsmayılovun məşhur "Safisa" şadlıq sarayında Azərbaycanda neft biznesi olan inquş milyarder Mixail Qutseriyevin oğlunun toyu olub. Virtualaz.org Rusiya KİV-lərinə istinadən xəbər verir ki, toy olduqca dəbdəbəli keçib, oxumaq üçün dəvət olunan müğənnilər arasında xeyli Hollivud ulduzu olub.**





Toyda iştirak edənlərdən biri, İnquşetiya prezidenti Yunusbes Yevkurov İnstagram-da yazıb ki, Qutseriyevin oğlu Səid Xədicə ilə evləndi . "Gənclər yaxşı tanınan və hörmətli ailələrdəndir... Toy çox gözəl keçdi, xeyirxahlıq və qonaqpərvərlik mühiti var idi. Aparıcılar bizim adət-ənənələrimizə riayət olunması üçün əllərindən gələni etdilər. Yeni evlənənlərə xoşbəxtlik, çoxlu uşaq və əlbəttə ki, valideyinlərinin xeyir-duasını arzulayıram" -Yevkurov yazıb.

"Lifenews" isə xəbər verir ki, toya 600-dən çox qonaq qatılıb. Qonaqları qapıda Qutseriyev özü qarşılayıb. Qonaqlar arasında bir çox oliqarxlar, Rusiya şou-biznesinin tanınmış simaları olub. Qonaqları əyləndirmək üçün məşhur Hollivud ulduzlarından Beyonce, Cenifer Lopes, Stinq, Elton Con, Enrike İqlesieas, Patrisiya Kaas səhnəyə çıxıblar.

"Russneft" şirkətinin prezidenti olan Mixail Qutseriyevin Hollivud ulduzlarının hərəsinə milyonlarla dollar qonorar ödədiyi bildirilir. Bildirilir ki, Qutseriyev Cennifer Lopesə 5, Elton Cona isə 7 milyon avro verməli olub.Səidin gəlini Xədicə mərasimə "Ellie Saab"dan olan uzun gəlinlikdə gəlib. Fransadan sifariş olanan donun ümumi çəkisi 25 kiloqram təşkil edir. Gəlinin əslən İnquşetiyadan olduğu qeyd olunur.Toyu İnquşetiyanın xalq artisti Tamara Yandiyeva aparıb.

Qeyd edək ki, Qutseriyevin kiçik oğlu Çingizxan 2007-ci ildə Moskvada müəmmalı avtomobil qəzasında həlak olub. Həmin vaxt Qutseriyev prezident Vladimir Putinin qəzəbinə tuş gəlmişdi, Rusiyadan qaçmalı olmuşdu. Məlumatlara görə, onun qəzəbə gəlməsinin səbəbi İnquşetiyada siyasətə "burnunu soxması" olmuşdu. Qutseriyev barəsində cinayət işinin qaldırılmasından xəbər tutaraq tələsik Rusiyadan qaçıb. Bir neçə gün sonra oğlu Çingizxan müəmmalı qəzada həlak olub.

İnquş milyarder həmin vaxt Azərbaycanda da neft işinə girmişdi və "Hövsan-Zığ" və "Zığ" yataqlarının istismarına dair ARDNŞ-lə müqavilə bağlamışdı. Oğlunun həlak olmasını eşidən Qutseriyev onunla vidalaşmaq üçün Rusiyaya qayıda bilmədi. Nüfuzlu adamların işə qarışmasından sonra cənazə Bakıya gətirildi və Qutseriyev oğlu ilə Bakıdakı "Göy Məscid"də təşkil olunan yas mərasimində vidalaşmalı oldu. Daha sonra cənazə Bakıdan İnquşetiyaya aparılaraq dəfn olundu. Qutseriyev isə bir müddət Bakıda gizləndikdən sonra Londona getmişdi. Biznesmen orada yeni şirkət təsis edərək Azərbaycanda və digər ölkələrdə neft biznesini genişləndirib. 2008-ci ildə onun Londonda qurduğu offşor şirkət "Global İnvestment Energy" (sonradan bu şirkət "Naftis"in tərkibinə daxil edilib) Azərbaycanın 4 neft yatağında qazma işləri aparmaqla bağlı lisenziyaya malik olan iki şirkətin səhmlərini alıb. Söhbət "Mişovdağ" və "Kəlaməddin" yataqlarının operatoru "Karasu Operating Companu"nin 85, "Padar" və "Harami" yataqlarının operatoru "Kura Valley Operating Companu"nin 80 faizlik aksiyalarından gedir.

Ola bilsin ki, indi Rusiyada iqtisadi çətinliklərin yaşandığı bir vaxtda Qutseriyevin böyük oğluna Moskvada bu cür dəbdəbəli toy etməsi yenə də Kremlin xoşuna gəlməsin. Vaxtilə Telman İsmayılov Rusiyada qazandığı milyonları Antalyada tikdirdiyi dəbdəbəli otelin açılışında Hollivud ulduzlarının başından səpələyəndə Putini hiddətləndirmişdi və həmin dəbdəbə indi T.İsmayılovun müflis duruma düşməsinin əsas səbəbidir...






## Bakıda müəmmalı gurultu: binalar silkələndi, seysmoloq açıqlama verdi

**Dünən saat 12:00 radələrində Bakının Səbayel və Yasamal rayonu ərazisində müəmmalı bir gurultu səsi eşidilib. Anspress xəbər verir ki, həmin səs o qədər güclü olub ki, hətta binalar da titrədib.**

Daha çox Badamdar qəsəbəsi ərazisində hiss edilən səs və binaların titrəməsi insanlar arasında təlaşa səbəb olub. Hətta bəzi vətəndaşlar öz sosial şəbəkədəki hesablarında şərhlər yazaraq nə baş verdiyini anlamağa çalışıblar.

Baş verən müəmmalı tərpənişlə bağlı Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli bildirib ki, məsələdən xəbərdardır: "Özüm də həmin səsi və tərpənişi hiss elədim. Qobu qəsəbəsində yerləşən stansiya da bu tərpənməni qeydə alıb. Ancaq onu deyə bilərəm ki, bu, zəlzələ deyildi".

Fövqəladə Hallar Nazirliyindən də hələlik partlayış, yaxud hər hansı bənzər hadisə barədə "qaynar xətt"ə heç bir çağırışın daxil olmadığını bildiriblər.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**

YENİ MÜSAVAT
N 64 (6385) 28 mart 2016

# Saatlar irəli çəkilmədi, amma problemsiz də ötüşmədi



**Martın son bazar günü, yəni ayın 27-də bir sıra ölkələr saatlarının əqrəblərini bir saat irəli çəkməklə yay vaxtına keçib. Azərbaycanda da hər il yay vaxtına keçid olsa da, bu il Nazirlər Kabinetinin müvafiq qərarı bu ləğv edildi. Ancaq Azərbaycanda yay vaxtına keçid ləğv edilsə də, mobil qurğular, kompüter və smartfonlarda saatlar avtomatik olaraq 1 saat irəli çəkilib. Nəticədə də əhali arasında çaşqınlıq yaşanıb.**

Deyilənlərə görə, bu məsələ Azərbaycan beynəlxalq səviyyədə UTC+4:00 vaxt ölçüsünə keçirildikdən sonra həllini tapacaq. Hətta metronun bir çox stansiyalarında, avtobuslarda da saatlar avtomotik olaraq bir saat irəli çəkilmişdi. Azərbaycana gətirilən yeni avtobuslarda saatların biri təzə, biri isə köhnə vaxtı göstərirdi. Avtobusda olan sərnişinlərin bir qismi köhnə saata baxaraq gedəcəyi yerə gecikdiyini, bəziləri isə təzə saatla tez çıxdığını deyir və narazılıq edirdilər. Bir sözlə, sərnişinlər də saatların hansının yanlış, hansının düzgün olduğunu ayırd edə bilmirdilər. Bu anlaşılmazlıq Bakı Metropoliteninindən də yan keçməyib. Martın 27-si saat 08:10-da metronun Koroğlu stansiyasında qatarların hərəkət istiqamətini göstərən lövhənin yanında quraşdırılan saat 07:43-ü, digər saat 08:27-ni, müvafiq olaraq stansiyada olan digər saatlar da fərqli rəqəmləri göstərirdi. Bu hal metronun "Neftçilər", "Koroğlu" stansiyalarında da müşahidə edilirdi.

Maraqlıdır, nəyə görə Azərbaycanda yay vaxt ləğv edildiyi halda elektron cihazlar avtomotik yay vaxtına keçid edib?

## Osman Gündüz: "Azərbaycan hökuməti öz qərarının icrasında yetəri qədər ciddi addım atmayıb"

"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz burada məsuliyyəti Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin daşıdığını dedi: "Azərbaycan Nazirlər Kabinetinin yay vaxtına keçidin ləğvi ilə bağlı qərarı, ümumiyyətlə isə saat məsələsinin tənzimlənməsi beynəlxalq əhəmiyyət kəsb edən bir məsələdir. Yəni qlobal dünyada müəyyən resurslar var ki, onların tənzimlənməsi artıq lokal çərçivədə yox, qlobal çərçivədə həyata keçirilir. Azərbaycanda olan



Osman Gündüz

saat Microsoft, əməliyyat sistemləri istehsalçıları kimi qlobal şirkətlər var ki, onlar üçün əhəmiyyətlidir. Proqram istehlakçıları üçün isə hansısa balaca, böyük ölkələrdəki saat məsələsi, lokal, milli resurslar var ki, bunlar əhəmiyyətlidir. Azərbaycan hökuməti yay vaxtının ləğvinin lokal əhəmiyyətli deyil, qlobal əhəmiyyətli məsələ olduğunun fərqinə varmalı idi. İnterneti qoşmaq üçün olan avadanlıqlar, yəni telefonlar, kompüterlər, proqram təminatları və sairələr saatla bağlı məlumatı dünyada bu işlə məşğul olan bəlli bir beynəlxalq qurumun informasiya sistemindən alır. Yəni anlaşıqlı dillə desək, vahid bir baza var və onlar internet üzərindən bu bazaya qoşulub istənilən saat qurşağına daxil olan ölkənin saatını həmin məlumat bazasından əldə edir və ön plana çıxarırlar. Azərbaycan hökuməti öz qərarının icrasında yetəri qədər ciddi addım atmayıb. Yəni bizim yerli saatla bağlı dəyişikliyi bütün dünya üzrə saat qurşaqlarının məlumatını özündə cəmləşdirən beynəlxalq qurumdakı informasiyaya dəyişiklik etməyib. Ona görə də mobil telefonlar, internet köhnə bazadan olan məlumatı üzə çıxarıblar. Düşünürəm ki, bu çaşqınlığa cavabdeh olan qurum Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsidir. Bu qurum saatla bağlı vaxt etalonun müəyyən edilməsinə cavabdeh olan qurumdur. Bu qərarın icrası istiqamətində həmin o beynəlxalq informasiya sistemində Azərbaycanla bağlı məlumatın yerləşməsinə cavabdeh qurum budur və məsuliyyəti də bu qurum daşıyır. Eyni zamanda, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin də burada birbaşa məsuliyyəti olmasa da, Azərbaycandakı müəyyən qlobal şirkətlərlə ciddi maarifçilik işi apara bilərdi. Bu qlobal şirkətlər yaranmış problemlə bağlı yetərli informasiya mühiti yarada bilmədilər. Camaat çaşqın vəziyyətə düşdü. Qlobal şirkətlər həyəcan təbili çalmalı idi. Məsələn, Rusiyada 2014-cü ildə bizdəki kimi qərar qəbul olunmuşdu. Rusiya yay vaxtına keçidi oktyabrda ləğv edəcəklərinə baxmayaraq, artıq avqust ayında məlumat bazasını dəyişmişdilər. Oktyabr gələndə də heç bir problem yaşanmadı. Çünki qabaqcadan informasiyanı dəyişdirmişdilər. Halbuki Rusiyada 11 saat qurşağı var. Biz də isə bir..."

Azərbaycanda yay vaxtının ləğvi xarici ölkələrlə aramızda olan saat zamanında da xeyli fərq yaradıb. Azərbaycanda əhali daha çox xarici telekanallara, xüsusən də Türkiyə kanallarına baxır. Yay vaxtına keçiddən imtina izləyicilərin sevimli seriallarının, verilişlərinin də vaxtının dəyişməsinə səbəb olub. Buna görə də insanları düşündürən bir sualda Azərbaycanın dünya ölkələrindən zaman fərqinin nə qədər olacağı ilə bağlıdır. Məsələn, Türkiyə Azərbaycan saatından yay vaxtına keçmədən öncə iki saat geri qalırdısa indi bu fərq birə enib. Çünki Türkiyədə martın son bazar günü saatlar bir saat irəli çəkilib və yay vaxtına keçid baş verib. Buna görə də Türkiyə Azərbaycandan bir saat geridə qalır. Azərbaycan artıq Finlandiya, Bolqarıstan, Latviya saatlarından 1 saat, Almaniya, Fransa, Hollandiya, Danimarka, Macarıstan saatlarından 2 saat, ABŞ, Kanada saatlarından 10 saat, Meksika, Braziliya saatından 9 saat irəlidir. Çin saatından isə 2 saat, Tailand saatından 1 saat, Avstraliya saatından 4 saat geridir. Rusiya və Gürcüstanla isə saat fərqimiz artıq yoxdur. Bundan başqa Azərbaycanın saatı Yunanıstanla 1 saat, Almaniya saatı ilə fərq isə 2 saata enib. Nyu-York saatı Azərbaycan saatından 8 saat geri idisə, indi bu fərq 7-ə enib. Həmçinin, Azərbaycan saatı Budapeşt saatından 3 saat irəli idisə, hazırda bu fərq 2 saatdır. Çexiya saatından isə 2 saat irəlidə olacaq. Əvvəl isə bu fərq 3 saat idi.

❑ **Günel MANAFLI**

# Xalq artistlərindən Yaqub Zurufçuya etiraz: "Bu, cinayətdir"

## Avropada yaşayan güneyli soydaşlarımız da konserti boykot edəcəkmi?...

**Əslən azərbaycanlı olan müğənni Yaqub Zurufçunun Almaniyanın bir neçə şəhərlərində keçirəcəyi konsert turları ilə bağlı qalmaqal getdikcə böyüyür. Onun təşəbbüsü ilə xalq artisti, tarzən Ramiz Quliyev, qarmon ifaçısı Aftandil İsrafilov, qoşanağara ifaçısı Sadıq Zərbəliyevin də iştirak edəcəyi konsertlərin afişalarda fars adı altında təqdim olunması təkcə Avropada yaşayan soydaşlarımız tərəfindən deyil, ölkəmizdə də tənqidlə qarşılanıb. Məsələ mətbuatda, sosial şəbəkələrdə geniş müzakirə edilib, pislənib, konsertlərin boykot edilməsi ilə bağlı çağırışlar edilib.**

**Xalq artisti Ramiz Quliyev** müsavat.com-a açıqlamasında keçiriləcək konsert turlarında bütün çıxışların Azərbaycan musiqisini təbliğ etdiyini desə də, hazırda konsertlər yenə də afişalarda "Perisan Concert Proudly Presents" (Fars Məhsullu Konsertin Təqdimatı) və "Konserte bozorg azəri" (Böyük azəri konserti) adı ilə təqdim olunur. Səslənən ittihamlara görə bu, Azərbaycan milli mədəniyyətini və musiqisini "paniranizm", "panfarsizm" ideologiyasının quyruğuna calamaq və aşağılamaq yönündə atılan adımmlardır.

**Xalq artisti, ustad xanəndə Canəli Əkbərov** da Azərbaycan musiqisinin fars adı altında təqdim olunmasının tamamilə əleyhinə olduğunu və bu cür addımların musiqimizə qarşı cinayət olduğunu deyib: "Biz uzun illər Azərbaycan muğamını, musiqisini qoruyub saxlamağa, geniş şəkildə təbliğ etməyə çalışmışıq. Dövlətimizin də yaxından dəstəyi ilə bu gün muğamımız daha da inkişaf edir, dünyaya tanıdılır. Yaqub Zurufçuya hörmətim, aramızda salamımız var. Lakin bu gün biz sənətkarlar musiqimizin fars adı altında təbliğ olunmasını qəbul edə bilmərik. Fars gəlib mənim ana dilimdə musiqi oxuyarmı? Əgər ifa etsə mən də üç dəfə artıq onların dilində musiqi ifa edərəm. Təbii ki, farslar heç vaxt bunu etməyiblər. Amma bu gün bizim bəzi muğam oxuyan sənətkarlarımız öz ifalarında fars ləhcələrindən, fars elementlərindən istifadə edirlər. Hər bir xalqın milli musiqisi onun pasportudur. Ondan kənara çıxmaq, cinayətdir. Olmaz belə şeylər!"

**Xalq artisti, tarzən Möhlət Müslümov** isə məsələyə bu cür münasibət bildirdi: "Yaxşı olardı ki, istər böyük, istər orta, istərsə də, kiçik sənətkarlar harada çıxış edirlərsə etsinlər orda Azərbaycan sözü yazılsın. Mənim sənət dostlarım Cənubi Azərbaycanda olarkən belə çıxış ediblər.

Qaldı ki, konsertin fars adı altında qeyd edilməsi təşkilatın adı ilə bağlı olması, belə şeylər olur. Bəzən hətta sənətkarlarımızın da adını fars kimi təqdim edənlər olub. Hələ yaxşıdır ki, konserti fars adı altında veriblər, olur ki, erməni adı ilə təqdim edirlər".

Qeyd edək ki, Almaniyanın Köln, Hamburq, Frankfurt şəhərlərində keçiriləcək konsert turlarının Avropadakı Azərbaycan milli diaspor təşkilatlarının əksəriyyəti tərəfindən boykot ediləcəyi barədə məlumatlar yayılmaqdadır. Məlum olduğu kimi, Hollandiyada fəaliyyət göstərən "Avropa-Azərbaycanın Dostları Cəmiyyəti"nin sədri Elman Mustafazadə konsertlə bağlı sosial şəbəkədə bəyanat yayıb. Təşkilat sədri musiqimizin fars adı altında təbliğ edilməsinə kəskin tənqid edib.

**Almaniyada yaşayan doktor Həmdullah Süleymani** Fərd qəzetimizə açıqlamasında qeyd edib ki, fars reklamını görmək hər bir azərbaycanlını kədərləndirir: "Çünki gözəl musiqi sənətimiz və sənətkarımız "Persiya", daha doğrusu fars adı altında bazarda satılır. İran adlanan ölkədə farslar bizim tarixi, dili, mədəniyyətimizi və bütünlüklə kimliyimizi fars adına çeviriblər. Təkcə güvən yerimiz olan Quzey Azərbaycana da indi əl bulaşdırırlar. Günahların hamısı özümüzdədir". Doktor konsertdə iştirak edən sənətkarlarımıza da səslənib: "Hörmətli Zurufçu, Ramiz və başqa dəyərli sənətkarlarımızdan xahiş edirəm, yaxşı olar ki, Quzeydə saxlanan hünər parçamızı farslara satmasınlar. Heç görünübdür ki, fars öz fars hünərini Azərbaycan, ya türk adı ilə reklam etsin? Əgər konsertin reklam forması dəyişilməsə, o konsertə ayaq qoymaram".

Almaniyada yaşayan azərbaycanlı mühacir vəkil **Nağı Mahmudi** da sosial şəbəkədə Yaqub Zurufçuya müraciət edərək "Bizim musiqimizi "Persian" adına təqdim etməsinlər!" deyə etiraz edib. Nağı Mahmudi "Yeni Müsavat"a açıqlamasında səslənən bəyanatlara qatıldığını, lakin konsertdə iştirak edən Yaqub Zurufçu və Aftandil İsrafilovu çox sevdiyini bildirib. O, adı çəkilən konsertlərə gedib-getməyəcəyi barədə hələ ki, bir qərar gəlmədiyini deyib.




Almaniyada mühacirətdə yaşayan milli-mədəni fəal **Şərifə Cəfəri** isə vurğulayıb ki, konserti boykot etmək doğru addım deyil: "İlk növbədə mən şəxsən Yaqub Zurufçudan gözləməzdim ki, izin versin ki, Azərbaycan yerinə azəri yazılsın. Amma bu gün əgər bir fars sponsorluq edibsə və Avropanın böyük şəhərlərində Azərbaycan musiqisi səslənəcəksə, bunu nə eybi var ki? Bir qədər dərin baxsaq görərik ki, boykot etməyin zərəri özümüzə qayıdır".

Xatırladaq ki, Yaqub Zurufçu məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, konsertin təşkilatçıları iranlı olduğundan təqdimat fars adı ilə gedib: "Onlar İrana geri döndükdən sonra bir problem yaşamasınlar deyə afişalar o cür təqdim olunub".

Zurufçu konsertlərinin boykot edilməsinə qarşı isə bu cür reaksiya verib: "Kim istəyir boykot etsin, özləri bilər".

❑ **Xalidə Gəray**